RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 274 (8297) ÇƏRŞƏNBƏ AXŞAMI, 10 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Əbədiyaşar ömür

### Heydər Əliyevin tərcümeyi-halı Azərbaycanın müstəqillik, qurtuluş, inkişaf tarixinin ən şanlı səhifəsidir

**Azərbaycanın tarixi bir çox önəmli hadisələrlə zəngindir. Ulu Öndər, dünya şöhrətli siyasi xadim Heydər Əliyev şəxsiyyəti, onun zəngin bioqrafiyası və nəhəng ideya-nəzəri irsi, quruculuq fəaliyyəti və ölkənin tərəqqisi naminə mübarizəsi bu tarixi hadisələrin içərisində xüsusi yer tutur.**

Azərbaycan xalqı çox haqlı olaraq Ulu Öndərin adını müstəqillik tarixinə dövlətimizin milli xilaskarı, memarı və böyük qurucusu kimi həkk etmişdir. Heydər Əliyev bəşəriyyət tarixində mənsub olduğu xalqa və millətə dövlət müstəqilliyini yenidən qazandıra bilən xilaskarlıq fenomenidir. Heydər Əliyev nurlu əməlləri ilə öz adını mənsub olduğu xalqın, dövlətin, onun dəyərlərinin simvoluna çevirmiş şəxsiyyətdir. Bu ad Azərbaycan üçün müstəqilliyin, qurtuluşun, inkişafın, bütövlüyün rəmzidir. Heydər Əliyev adı xalqımız üçün mənəvi yüksəlişin, milli intibahın, azərbaycançılığın, vətənə sevginin və layiqli xidmətin təcəssümüdür. Heydər Əliyev adı dünya üçün Azərbaycanı kökündən tanımağın, Azərbaycanın qüdrətini dərk etməyin ən düzgün vasitəsidir.

Heydər Əliyevin tərcümeyi-halı Azərbaycanın tarixidir. Heydər Əliyevin ömür yolunun hər bir səhifəsi ləyaqət, dəyanət təcəssümü, fövqəlqüdrət və hikmətlə doludur. Ulu Öndər nəsillərə örnək olan həyat və fəaliyyəti ilə nəinki Azərbaycan tarixində, eləcə də bütün türk dünyasında və beynəlxalq aləmdə ən görkəmli şəxsiyyətlər sırasında ilk yerlərdə durmağa layiq nadir simalardandır.

O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıbdır. Çünki o, Azərbaycanı dünyaya tanıdıb, dünyanı Azərbaycana gətiribdir. O, Azərbaycanı qorumaq üçün yaşayıb, Azərbaycanı yaşatmaq üçün qurub-yaradıbdır. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının Ümummilli Liderinə, dünya siyasətinin nəhənglərindən birinə çeviribdir.

Ardı 4-cü səh.



## İslahatlar inkişafa yeni dinamizm gətirir

**Ölkədə həyata keçirilən sistemli, hərtərəfli islahatlar getdikcə daha da dərinləşir. Deyə bilərik ki, ilin əvvəlindən geniş vüsət alan islahatlar bir çox sahələri əhatə etməklə ölkənin ümumi inkişafına yeni dinamizm gətirir.**
**Prezident İlham Əliyevin xalqın sosial rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi sosial-iqtisadi islahatların uğurlarını bu gün hər bir vətəndaş öz həyatında hiss edir.**

### Bütün sahələri əhatə edən islahatlar

İslahatlar demək olar ki, bütün sahələrdə aparılır. İqtisadi sahədə, maliyyə sektorunda islahatlar, şəffaflıqla bağlı olan tədbirlər artıq öz müsbət nəticələrini verməkdədir. Eyni zamanda dövlət başçısı bu ilin aprel ayında məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi ilə bağlı fərman imzalayıb. Məhkəmə sistemində həyata keçirilən islahatlar iqtisadi islahatlara dəstək olacaqdır.

İlin əvvəlindən start götürən struktur, kadr islahatları isə ölkədə həm geniş müzakirə mövzusuna çevrilir, həm də ictimaiyyət tərəfindən çox yüksək qiymətləndirilir. Hər kəs hesab edir ki, icra strukturlarında aparılan struktur islahatları, yeni Nazirlər Kabinetinin, Prezident Administrasiyasının formalaşdırılması, peşəkar insanların, idarəçilik sahəsində təcrübəli şəxslərin müxtəlif vəzifələrə təyin olunması ölkənin ümumi inkişafına böyük töhfələr verəcək.

Dekabrın 4-də Hacıqabul rayonuna və Naftalan şəhərinə təyin etdiyi yeni icra hakimiyyəti başçılarını qəbul edən Prezident İlham Əliyev ölkədə aparılan köklü islahatlardan söz açaraq dedi ki, bütün sahələri əhatə edən islahatlar, iqtisadi, maliyyə sektorundakı yeniliklər, şəffaflıqla bağlı olan tədbirlər artıq öz uğurlu nəticələrini verməkdədir. Bu uğuru 11 aydakı statistik göstəricilər də təsdiqləyir. Belə ki, bu ilin 11 ayında təkcə vergi və gömrük orqanlarından büdcəyə plandan əlavə 934 milyon manat vəsait daxil olub.

Prezident bunun başlıca səbəbini kadr islahatlarında görür. Çünki əldə edilən nailiyyətlər həm vergi, həm gömrük orqanlarında köklü kadr dəyişikliklərindən, bu qurumlara yeni rəhbərlərin təyinatından sonra qazanılıb. Ona görə də struktur islahatları ilə bərabər, kadr islahatları da aparılır.

### İslahatlar qanunvericilik sahəsinə yeni keyfiyyət dəyişiklikləri gətirəcək

Struktur islahatlarına gəldikdə isə dövlət başçısı dedi ki, Prezident Administrasiyasının, Nazirlər Kabinetinin yeni strukturları təsdiq edilib və ali qanunvericilik orqanı, Milli Məclis də yenidən formalaşacaq. Çünki parlamentdə çoxluq təşkil eən Yeni Azərbaycan Partiyası Milli Məclisin buraxılması və yeni parlament seçkilərinin keçirilməsi ilə bağlı ali qanunverici orqana müraciət etmişdi. Müraciətdə qeyd edilirdi ki, ölkədə həyata keçirilən islahatlar bütün sahələri əhatə etməlidir. Bu səbəbdən də Prezidentin islahatları qanunverici hakimiyyət sferasından da kənar qalmamalıdır. Yəni Milli Məclisin də yenilənməsinə, müasirləşməsinə ehtiyac var.

Ardı 2-ci səh.

## Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin inkişafı çox uğurlu olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri, Rusiya-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli Maksim Stanislavoviç, hörmətli qonaqlar.

Azərbaycana xoş gəlmisiniz. Sizi yenidən görməyimə şadam. İl başa çatır. Artıq indidən, demək olar ki, bu il bütün istiqamətlər üzrə ikitərəfli münasibətlərimizin inkişafı üçün çox uğurlu olub. Yüksək səviyyədə, prezidentlər arasında çox mühüm görüşlər olub. Beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşlərdən əlavə, prezidentlər arasında iki görüş olub. Sizin də iştirak etdiyiniz həmin görüşlərdə bütün istiqamətlər üzrə qarşılıqlı fəaliyyətimizin əsas, o cümlədən iqtisadi-ticari əlaqələrin inkişafı prinsipləri təsdiq edilib. Prezidentlər "yol xəritələri"nin implementasiyası üzrə işi fəallaşdırmaq barədə tapşırıq veriblər. Şadam ki, bu proses çox uğurla gedir.

Mehriban Əliyevanın Moskvaya səfəri çərçivəsində də "yol xəritələri" siyahısının genişləndirilməsi razılaşdırılıb ki, onlar yeni sahələri əhatə etsin. "Yol xəritələri"nin reallaşmasının yaxşı nəticələr verdiyini nəzərə alsaq, bu, çox vacibdir. Ona görə də bu siyahıya yeni istiqamətlərin əlavə edilməsi, əlbəttə ki, bizim əməkdaşlığımızın məntiqi davamıdır.

Biz ili yaxşı nəticələrlə başa vururuq, əmtəə dövriyyəsi artır. Bu, sevindirici haldır, çünki əmtəə dövriyyəsi ilbəil artır. Mövcud potensialın artırılması ilk baxışda çətindir, çünki baza artır. Bununla bərabər, biz fəal qarşılıqlı əlaqələrin nəticələrini görürük. Bu nəticələr həm əmtəə dövriyyəsinin, həm də investisiyaların artmasında əksini tapır. Bu məsələ yaxın vaxtlarda Mehriban Əliyevanın səfəri çərçivəsində də müzakirə edilib və vurğulanıb ki, həm Rusiyadan Azərbaycana, həm də Azərbaycandan Rusiyaya çoxmilyardlıq investisiyalar, ilk növbədə, bizim bir-birimizə etimadımızın, həmçinin Rusiyada da, Azərbaycanda da yaxşılaşmaqda olan əlverişli investisiya mühitinin göstəricisidir. Biz bunu Dünya Bankının "Doing Business" reytinqində də, Davos Forumunun rəqabətqabiliyyətlilik reytinqində də görürük. Bu reytinqlərdə həm Azərbaycan, həm də Rusiya öz mövqelərini yaxşılaşdırır. Bu, obyektiv reallıqdır. Bu fakt onu göstərir ki, ölkəmizdə həyata keçirilən islahatlar konkret nəticələr verir.

Ardı 2-ci səh.

## İşsizlik sosial problem kimi tam aradan qaldırılır

Məşğulluq imkanlarının mütəmadi artırılması ölkədə işsizliyin azalaraq 5 faizə enməsinə səbəb olub. Əhalinin məşğulluğunun, sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır. Tədbirlər çoxşaxəli və genişmiqyaslıdır. Misal olaraq DOST - Dayanıqlı və Operativ Sosial Təminat layihəsini və bir sıra digər proqramları göstərmək olar.

DOST layihəsi dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında modern və çevik, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb. Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli fərmanı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi) və DOST mərkəzlərinin yaradılmasına imkan verib. Bu təşəbbüsü Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva irəli sürüb.

2019-cu il mayın 9-da DOST Agentliyi və 1 saylı DOST mərkəzi (Səbail, Yasamal) açılıb. Mərkəzdə əmək, məşğulluq, sosial müdafiə və sosial təminat, əlillik, reabilitasiya sahələri üzrə 132 növdə xidmət təqdim edilir. Ötən aylar ərzində 1 saylı DOST Mərkəzinə on minlərlə müraciət olub. Vətəndaşlar bu xidmətdən olduqca məmnundurlar.

Ardı 6-cı səh.

## 10 ayda əsas kapitala 11,4 milyard manatdan çox sərmayə qoyulub

### Bu vəsaitin əsas hissəsi istehsal sahələrinə yönəldilib

**Bu gün Azərbaycan keçmiş SSRİ məkanında ən çox xarici investisiya qoyulan ölkəyə çevrilmişdir. Başlıca səbəb neft sənayesi ilə bağlı olsa da, digər səbəb ölkədə kapital qoyuluşuna imkan verən mükəmməl qanunvericilik bazasının yaradılmasıdır. Prezident İlham Əliyev tərəfindən aparılan uğurlu hüquqi islahatlar istər xarici, istərsə də yerli kapitalın qorunmasına zəmanət verir. Bunun nəticəsidir ki, Azərbaycan kapital qoyuluşuna görə nəinki MDB məkanında, hətta bir sıra Şərqi Avropa ölkələrindən öndədir.**

Son statistikaya nəzər salaq: cari ilin yanvar-oktyabr aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 11407,4 milyon manat vəsait qoyulub. Həmin dövrdə neft-qaz sektoruna investisiya yatırımları azalsa da, qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 6,8 faiz artıb. Dövlət Statistika Komitəsinin bu barədə yaydığı məlumatda o da bildirilir ki, ümumi sərmayənin 7472,8 milyon manatı istehsal, 2852,9 milyon manatı xidmət sahələrinin, 1081,7 milyon manatı yaşayış evlərinin tikintisinin payına düşüb.

Ardı 2-ci səh.

# Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin inkişafı çox uğurlu olub

*Əvvəli 1-ci səh.*

Mən onu da bilirəm ki, bu gün Azərbaycanda çox mühüm investisiya layihəsinin - əczaçılıq müəssisəsinin açılışı olacaq. Bu istiqamətdə Azərbaycan bazarının genişlənməsini, əhalinin və istehlakın da artmasını nəzərə alsaq, bu, çox sevindirici haldır. Əlbəttə ki, biz bazarı özümüzün istehsal etdiyimiz məhsullarla zənginləşdirməkdə maraqlıyıq. İndiki halda Rusiya şirkətinin Azərbaycanda istehsalı başqa istiqamətlərdə, maşınqayırma, energetika və nəqliyyatda olduğu kimi, bizim münasibətlərimizin yaxşı göstəricisidir. Samur çayı üzərindən körpünün tikintisi praktiki olaraq başa çatdırılıb. Bu da onun nəticəsidir ki, yüksək səviyyədə qəbul edilən bütün qərarlar yerinə yetirilir. Zənnimcə, bu, bizim münasibətlərimizin əsas nailiyyətlərindən biridir. Biz qarşıya konkret məsələlər qoyur, onları konkret həll edir və yaxşı nəticələr görürük.

Əlbəttə, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun ilkin görkəmdə bərpa olunmasını məmnuniyyətlə qeyd etməliyəm. Mən bu pavilyonun açılışına televizorla baxmışam, sonra isə bizim telekanallarda çoxlu reportajlar göstərilib. Bu, əlbəttə, bizim münasibətlərimiz üçün çox böyük əhəmiyyət kəsb edən olduqca əlamətdar hadisə və bizim ortaq tariximizə hörmət əlamətidir. Düşünürəm ki, bu pavilyon Azərbaycan mallarını Rusiya bazarlarında çox fəal təbliğ edəcək.

Başqa sözlə desək, bizim əməkdaşlığımızın bütün istiqamətləri üzrə müsbət nəticələr göz qabağındadır. Artıq yekun vurmaq olar. Əminəm ki, növbəti il də çox uğurlu olacaq, ona görə ki, münasibətlərimizi möhkəmlətmək üçün çox ciddi niyyətlərimiz var. Bu gün Hökumətlərarası Komissiyanın iclası da keçiriləcək. Əminəm ki, geniş spektrli məsələlər müzakirə olunacaq, reallaşdırılmaq üçün konkret tapşırıqlar veriləcək. Buna görə inanıram ki, səfəriniz çox səmərəli olacaq və Bakıda vaxtınızın xoş keçməsini arzu edirəm.

* * *

Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri, Rusiya-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Maksim Oreşkin Rusiya Prezidenti Vladimir Putinin salamlarını dövlət başçısına çatdırdı.

Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

* * *

**Rusiyanın İqtisadi İnkişaf naziri Maksim OREŞKİN** dedi:

- Çox sağ olun, hörmətli İlham Heydər oğlu. Görülən işə bu cür müsbət qiymət verdiyinizə görə sağ olun. Həqiqətən, cari rəqəmlərə nəzər salsaq, əmtəə dövriyyəsini və dinamikanı əks istiqamətdə müqayisə etsək, məsələn, bu il Avrasiya İqtisadi İttifaqı ilə bizim münasibətlərimizdə dinamika mənfidir, əmtəə dövriyyəsi bir qədər azalır. Buna görə, həqiqətən, Azərbaycanla təqribən 30 faiz artım var. Bu, ümumiyyətlə, hər hansı ölkə ilə müqayisədə həqiqətən ən yüksək göstəricilərdən biridir. Doğrudan da, baza bəlkə də bu qədər yüksək olmayıb və Hökumətlərarası Komissiya çərçivəsində mənim həmkarlarımla birlikdə həyata keçirdiyimiz ilk tədbirlər, sədlərin aradan qaldırılması, bazarlar açılması - bütün bunlar ciddi irəliləyişə nail olmağa və bu cür yaxşı nəticələr göstərməyə imkan verib.

Lakin daha irəli getmək və elə etmək lazımdır ki, bunlar birdəfəlik nəticə deyil, daimi hadisə olsun. Buna görə biz burada, əlbəttə, əməkdaşlığın dərinləşdirilməsi üzərində işləyəcəyik. Çünki bunlar, sadəcə, sədlər deyil, bunlar müştərək layihələr məsələləri və əlavə dəyər zənciridir. Bu gün biz kənd təsərrüfatına dair proqram imzalayacağıq. Həmin proqram təkcə kənd təsərrüfatına deyil, onunla bağlı bütün məsələlərə aiddir. Ona görə də bu cür kompleks məsələlər və ya, deyək ki, tranzit məsələsi, Rusiya ilə Azərbaycanın birlikdə inkişaf etdirdiyi bir neçə tranzit yol buraya aiddir. Tranzit axınının artması üçün hər yerdə növbəti addımlar atılmalıdır. Biz burada daha çox, daha ciddi artım görürük. Burada müsbət rəqəmlər var. Buna görə biz bütün bunların üzərində işləyəcəyik.

Siz müştərək istehsal məsələsini xatırlatdınız. Siz düz dediniz ki, bu gün biz əczaçılıq zavodunu açacağıq. Keçən dəfə biz avtomobil zavodunun təməlini qoyduq. Bu gün helikopterlər üçün xidmət mərkəzinin təməlinin qoyulmasını planlaşdırırıq. Hər dəfə nə isə bir layihə, irəliyə doğru nə isə yeni bir hərəkət olur. Əlbəttə, biz burada Rusiya-Azərbaycan və Azərbaycan-Rusiya işgüzar şuralarının fəal işini görürük. Çünki layihələrin sayı artır və biz öz tərəfimizdən həmin layihələri dəstəkləmək üçün nə lazımdırsa edirik. İnnovasiya istiqaməti, Sizin xatırlatdığınız altıncı "yol xəritəsi" çox mühüm istiqamətdir. Siz bizim nümayəndə heyətinin tərkibinə nəzər salsanız, bu gün mənimlə üç nazir müavini gəlib. Çünki bu, reallaşan layihələrin sayını və hansı miqyasda layihələri həyata keçirməli olduğumuzu göstərir.

## Ukraynanın Prezidenti zati-aliləri cənab Vladimir Zelenskiyə

Hörmətli cənab Prezident!

Odessa şəhərində kollecdə baş vermiş yanğın nəticəsində insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Ukrayna xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2019-cu il*

## Ə.V.Musayevin 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Əlişir Veys oğlu Musayev 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2019-cu il*

## "Azərbaycan Respublikası Dövlət Neft Fondu Müşahidə Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 iyun tarixli 255 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Dövlət Neft Fondu Müşahidə Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 iyun tarixli 255 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1337) 1-ci hissəsi ilə təsdiq edilmiş Azərbaycan Respublikası Dövlət Neft Fondu Müşahidə Şurasının tərkibi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının Baş naziri

Azərbaycan Respublikasının Milli Məclisi Sədrinin müavini

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikasının Maliyyə naziri

Azərbaycan Respublikasının İqtisadiyyat naziri

Azərbaycan Respublikası Mərkəzi Bankının sədri".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2019-cu il*

## Bakı şəhəri Suraxanı rayonunun Yeni Suraxanı qəsəbəsinin daxili yollarının əsaslı təmiri ilə bağlı əlavə tədbirlər barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Suraxanı rayonunun on yeddi min səkkiz yüz nəfər əhali yaşadığı Yeni Suraxanı qəsəbəsinin daxili yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 7,8 milyon (yeddi milyon səkkiz yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2019-cu il*

# İslahatlar inkişafa yeni dinamizm gətirir

*Əvvəli 1-ci səh.*

Parlamentdə müzakirəyə çıxarılan sənəd deputatlar tərəfindən müsbət qiymətləndirilmiş və Milli Məclis qərar layihəsi qəbul edərək ölkə Prezidentinə ünvanlamışdı. Dövlət başçısı "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" Milli Məclisin müraciətində göstərilmiş parlamentin buraxılması məsələsinin Konstitusiyaya uyğunluğu ilə bağlı dekabrın 2-də Konstitusiya Məhkəməsinə sorğu göndərmişdi. Dekabrın 4-də Prezidentin sorğusuna cavab olaraq Konstitusiya Məhkəməsinin Plenumu Milli Məclisin buraxılmasının Əsas Qanuna uyğun olması barədə qərar qəbul etmişdi. Bir gün sonra dövlət başçısı Milli Məclisin buraxılması və fevral ayının 9-da növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı sərəncam imzalayıb.

Siyasi ekspertlər hesab edirlər ki, parlament islahatları qanunvericilik sahəsinə yeni keyfiyyət dəyişiklikləri gətirəcək, ölkəmizin inkişafı yolunda daha mükəmməl, səmərəli qanunlar qəbul olunacaq.

Əlavə edək ki, hüquq baxımdan 2016-cı ildə Konstitusiyaya dəyişikliklərlə bağlı keçirilən referendumda çox vacib məsələ həllini tapıb. Əgər həmin vaxta qədər yalnız parlamentin Prezidenti vəzifədən kənarlaşdırmaq səlahiyyəti var idisə, referendumdan sonra Konstitusiyada Prezidentin də parlamenti buraxmaq səlahiyyəti təsbit olunub. Yəni, ədalətli balans yaranıb.

Beləliklə, ölkəmizdə tezliklə yeni parlament formalaşacaq. Bununla da Prezidentin islahatları bütün sahələri əhatə edəcək. Bu islahatlar əlbəttə ki, Azərbaycanın hərtərəfli inkişafına müsbət töhfəsini verəcək, siyasi proseslərə dinamizm gətirəcək.

Dekabrın 5-də Şamaxıda "ASAN Həyat" Kompleksinin açılışını edən dövlət başçısı kompleksin bir qrup gənc əməkdaşı ilə səmimi söhbətində bu məsələyə toxunaraq vurğuladı ki, ölkədə növbədənkənar parlament seçkiləri elan olunub. Çox güman ki, gənclər də bu seçkilərə fəal qoşulacaqlar. Çünki yeni simalar, yeni ideyalar, yeni yanaşma lazımdır.

Dünyada ən islahatçı Prezident kimi tanınan cənab İlham Əliyevin bu islahatlarının bir məqsədi var - Azərbaycanın uğurlu inkişafının təminatı, ölkədə mövcud olan sabitliyi qoruyub saxlamaq və gənc peşəkar kadrlara özlərini göstərmələri üçün imkan yaratmaq.

Kadr islahatlarının davam etdiriləcəyini vurğulayan cənab İlham Əliyev vəzifəyə təyin edilən yeni kadrlara həm tövsiyələrini verir, həm də onların fonunda digərlərinə xəbərdarlığını çatdırır: "Son vaxtlar aparılan islahatlar artıq öz nəticəsini verməkdədir. Cəmiyyətdə bu islahatlarla bağlı çox müsbət rəy formalaşıb və gözləntilər də vardır. Ona görə təyin edilmiş bütün yeni kadrlar qarşısında konkret vəzifələr qoyulur və bu kadrlar o vəzifələri icra etməlidirlər. Dövlət məmurları vəzifəyə gəlir mənbəyi kimi baxmamalıdırlar. Dövlət məmurları xalqa xidmət etməlidirlər. Onların başlıca missiyası bundan ibarətdir və siz də belə işləməlisiniz".

Prezident göstərilən bu etimadı yeni təyin edilən kadrlar üçün böyük avans adlandıraraq indiki şəraitdə kadrlara qarşı tələbkarlığın artdığını söyləyir. Kadrlar qarşısında çox ciddi vəzifələr qoyulur. Əgər yeni kadrlar Prezidentin etimadını doğrultmasalar, onları çox ciddi cəza gözləyir.

### İslahatların dərinləşməsi xalqın Prezidentə inamını daha da gücləndirir

Əlbəttə ki, ölkədə aparılan kadr və struktur islahatları, eyni zamanda Azərbaycanın beynəlxalq imicini yüksəldir və vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. Məhz bütün bunlara görədir ki, Prezident xalqına, xalq isə öz liderinə güvənir. 2019-cu ilin ötən dövrünə, ictimai-siyasi və sosial həyatda baş verən hadisələrə nəzər yetirsək görərik ki, vətəndaşlarla birbaşa təmaslara üstünlük verən, özünəməxsus təmkin və həssaslıqla onların problemlərini dinləyən və dərhal həlli üçün qəti tapşırıqlar verən cənab İlham Əliyevin atdığı addımlar, sosial-iqtisadi və yeni kadr islahatları xalqın Prezidentinə olan etimadını daha da artırıb.

Sosial Tədqiqatlar Mərkəzi (STM) tərəfindən aparılan monitorinqin nəticələri də deyilənləri təsdiqləyir. Qurumun keçirdiyi sorğunun nəticələri göstərir ki, cənab İlham Əliyevin beynəlxalq və daxili müstəvidə fəaliyyəti əhali tərəfindən milli maraqların qorunması, ümummilli rifahın təmin olunması baxımından olduqca təsirli və əhəmiyyətlidir. Ümumilikdə vətəndaşların 77,5 faizi ölkə Prezidentinə inam və etimadının daha da artdığını, 18,1 faiz respondent isə həmişəki sabit inam və etibarının qorunub saxlandığını bildiriblər. Davamlı kadr islahatları vətəndaşlar tərəfindən ümummilli rifahın təmin olunmasının alternativsiz yolu kimi qiymətləndirilir.

Tədqiqatlar göstərir ki, islahatların dərinləşməsi və geniş miqyas alması ilə Prezidentə olan ictimai rəğbətin və dəstəyin artması arasında dərin bağlılıq var. Göründüyü kimi, əhali "Azərbaycanda dövlət siyasətinin mərkəzində insan amili dayanır" prinsipinin reallıqda təzahürünü təsdiqləyir.

Bir sözlə, bu gün birmənalı şəkildə demək olar ki, Azərbaycan cənab İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli islahatlarla bir çox dövlətləri qabaqlayıb. Qarşıya qoyulan məqsəd isə Azərbaycanı dünyanın ən müasir ölkələri sırasına çıxarmaqdır. Bu müasirlik isə həm idarəetmədə, həm vətəndaş-məmur münasibətində, həm iqtisadiyyatın yeni müasir qaydalarla idarə olunmasında və əhaliyə göstərilən sosial qayğıda özünü göstərir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Bakıda Azərbaycan-Rusiya Hökumətlərarası İqtisadi Komissiyasının 18-ci iclası keçirilib

### İclas çərçivəsində iki ölkə arasında 3 sənəd imzalanıb

Dekabrın 9-da Bakıda Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının 18-ci iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasdan əvvəl Azərbaycan Respublikasının Baş Nazirinin müavini, komissiyanın həmsədri Şahin Mustafayevlə Rusiyanın İqtisadi İnkişaf naziri, komissiyanın həmsədri Maksim Oreşkinin görüşü olub. Görüşdə Azərbaycan-Rusiya iqtisadi-ticarət əlaqələrinə və əməkdaşlıq perspektivlərinə dair müzakirələr aparılıb. Bildirilib ki, Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və iki ölkə arasındakı ticarət dövriyyəsinin həcmində müsbət artım dinamikası müşahidə edilir. Ticarət və qarşılıqlı investisiya qoyuluşları Azərbaycan-Rusiya əlaqələrinin mühüm istiqamətlərindən biridir.

Hökumətlərarası İqtisadi Komissiyanın iclasında Baş Nazirin müavini Ş.Mustafayev Azərbaycan və Rusiya Prezidentlərinin siyasi iradəsi və birgə səylərinin, qarşılıqlı səfərlərinin ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin genişləndirilməsi üçün möhkəm zəmin yaratdığını deyib. Bu yaxınlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiyaya rəsmi səfərini xatırladan Ş.Mustafayev uğurlu və məhsuldar səfərin önəmli hadisələrlə yadda qaldığını qeyd edib. Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyəsinin iqtisadi-ticarət əməkdaşlığının daha da genişləndirilməsi üçün böyük imkanlar açdığını deyən Baş Nazirin müavini vurğulayıb ki, Azərbaycan və Rusiya strateji tərəfdaşlardır: "Bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticarət, enerji, nəqliyyat və sair sahələrdə əlaqələrimiz uğurludur. Hazırda ölkəmizdə Rusiya kapitallı 950 şirkət fəaliyyət göstərir. Ötən il Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsi 19 faiz, bu ilin 10 ayında isə 23 faiz artıb. İndiyədək Azərbaycan tərəfindən Rusiya iqtisadiyyatına 1,2 milyard ABŞ dolları, Rusiya tərəfindən isə Azərbaycana 4,9 milyard dollar sərmayə yatırılıb".

Ş.Mustafayev bildirib ki, Azərbaycan-Rusiya Hökumətlərarası İqtisadi Komissiyasının 18-ci iclasının proqramı genişdir. Belə ki, bu gün Pirallahıda dərman istehsalı zavodunun açılışı olacaq, həmçinin Zabrat aeroportunda Helikopterlərin təmiri və texniki xidmət mərkəzinin təməli qoyulacaq. Həmçinin bu gün Hacıqabul Sənaye Parkında növbəti müəssisənin təməlqoyma mərasimi keçiriləcək. Gələn ilin yazında isə Hacıqabul Sənaye Məhəlləsində "QAZel" markalı avtomobillərin istehsalı üzrə zavodun açılışı olacaq.

Baş Nazirin müavini deyib ki, Samur çayı üzərində salınan körpü isə ilin sonunadək açılacaq. İki ildir körpünün tikintisi aparılır. Bu körpünün açılması ticarət əlaqələrinin və nəqliyyatın inkişafına mühüm töhfəsini verəcək.

2020-ci ildə "Şahdağ" Turizm Mərkəzində Azərbaycan və Rusiya regionlararası gənclər forumunun keçiriləcəyini deyən Ş.Mustafayev qeyd edib: "Azərbaycanla Rusiya gəncləri arasında əlaqələrin gücləndirilməsi və mütəmadi olaraq regionlararası gənclər forumlarının keçirilməsi ilə bağlı razılığa gəlinib. Bu forumların bir il Azərbaycanda, növbəti il isə Rusiyada keçirilməsi nəzərdə tutulub.

Rusiyanın İqtisadi İnkişaf naziri Maksim Oreşkin Azərbaycan və Rusiya prezidentlərinin ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsinə böyük önəm verdiklərini, iqtisadi-ticarət əlaqələrinin inkişafı üçün yüksək potensialın olduğunu vurğulayıb. Gələn il iyunun 3-6-da növbəti Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunun keçiriləcəyini bildirən M.Oreşkin deyib: "Azərbaycandan olan partnyorlarımızı bu forumda iştiraka dəvət edirik. Forumun əhatəsi ildən-ilə genişlənir. 1997-ci ildən keçirilən, qabaqcıl platformaya çevrilmiş forum dünyanın əhəmiyyətli iqtisadi tədbirlərindəndir, 2006-cı ildən Rusiya Federasiyasının Prezidentinin himayəsi və iştirakı ilə təşkil edilir. Forumun keçirilməsində məqsəd rəsmilərin, biznes və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə iqtisadi problemlərin həlli istiqamətində müzakirələrin aparılmasıdır. Bu forumda sizi, Şahin Mustafayev başda olmaqla və Azərbaycan nümayəndə heyətini görməkdən məmnun olardıq. Eyni zamanda, 2021-ci ilin avqustunda Həştərxanda II Xəzər İqtisadi Forumu keçiriləcək. Artıq bununla bağlı hazırlıq işlərinə başlanılıb".

İclasda iki ölkə arasında regionlararası əlaqələr, həyata keçirilən birgə layihələr, "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi"nin inkişaf etdirilməsi, sənaye, kənd təsərrüfatı, turizm, təhsil və sair sahələrdə əlaqələrin inkişafı, biznes əməkdaşlığının genişləndirilməsi, nəqliyyat sahəsində əməkdaşlığın gücləndirilməsi məsələləri müzakirə edilib.

Sonda iclasın protokolu, Azərbaycan ilə Rusiya arasında 2020-2022-ci illər üzrə aqrar sənaye kompleksində və 2020-2022-ci illər üçün turizm sahəsində əməkdaşlıq proqramları imzalanıb. Sənədləri komissiyanın həmsədrləri - Baş Nazirin müavini Şahin Mustafayev və Rusiyanın İqtisadi İnkişaf naziri Maksim Oreşkin imzalayıblar.

# 10 ayda əsas kapitala 11,4 milyard manatdan çox sərmayə qoyulub

*Əvvəli 1-ci səh.*

Məlumdur ki, həyata keçirilən islahatlar sayəsində ölkədə özəl sektor inkişaf edib və yüksək maliyyə imkanlarına malik sahibkarlar yetişib. Bunun sayəsində kapital qoyuluşunda da özəl sektorun xüsusi çəkisi artıb. Təkcə hesabat dövründə ümumi sərmayənin 51,1 faizi qeyri-dövlət sektorunun səhmdarları tərəfindən qoyulub. Daxili mənbələrdən əsas kapitala yönəldilən vəsaitin dəyəri isə ümumi sərmayənin 71,1 faizini təşkil edib. Bu statistikanın davamı olaraq qeyd edək ki, 10 ay ərzində əsas kapitala yönəldilən sərmayədə müəssisə və təşkilatların vəsaitləri 6434,4 milyon, bank kreditləri 886,1 milyon, büdcə vəsaitləri 3109,2 milyon, büdcədənkənar fondların vəsaitləri 166,9 milyon, əhalinin şəxsi vəsaitləri 774,5 milyon, digər vəsaitlər 36,3 milyon manat təşkil edib.

Qeyd etdiyimiz kimi, ölkəmizdə mövcud olan mükəmməl qanunvericilik bazası xarici sahibkarları da Azərbaycan iqtisadiyyatına kapital qoyuluşuna təşviq edib. Yalnız hesabat dövründə xarici ölkələr və beynəlxalq təşkilatlar əsas kapitala 2738,3 milyon manat vəsait qoymuşlar. Bunun 83 faizi Birləşmiş Krallıq, Türkiyə, ABŞ, İsveçrə, Yaponiya, Malayziya, Rusiya, İran, Norveç və Fransa sərmayədarlarına məxsusdur.

Mərkəzi Bankın məlumatına görə, cari ilin oktyabr ayının 1-nə ölkəmizin bank və kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində 14211,3 milyon manat təşkil edib. Ümumi portfelin 11563,1 milyon manatı və ya 81,4 faizi uzunmüddətli kreditlərin payına düşüb. Həmin kreditlərin 97,6 faizi banklar, 2,4 faizi bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən ayrılıb.

Ölkə üzrə kapital qoyuluşu həyata keçirilərkən sənaye, emal, istehsal sahələrinə üstünlük verilir. Bunun nəticəsidir ki, hesabat dövründə kapitala yönəldilən ümumi vəsaitin 49,4 faizindən sənayenin inkişafı üçün istifadə edilib. Bu sırada digər sahələr tikinti, nəqliyyat və anbar təsərrüfatı, eləcə də aqrar sektordur.

Bu vəsaitlər hesabına bütün ölkə ərazisində müxtəlif təyinatlı çoxsaylı obyektlər, o cümlədən Bakıda Bakı Nəqliyyat Agentliyinin "Koroğlu" nəqliyyat mübadilə mərkəzi, şpris istehsalı zavodu, DOST Agentliyinin və ilk DOST mərkəzinin inzibati binası, Əmlak Xidmətləri Məkanı, Pirallahı Rayon İcra Hakimiyyətinin inzibati binası, həmin rayonda Gənclər mərkəzi, Mərdəkan-Qala avtomobil yolu, Naxçıvan Muxtar Respublikasında 1674 şagirdlik 4 ümumi təhsil müəssisəsi, 200 yerlik məktəbəqədər təhsil müəssisəsi, 4 ambulatoriya-poliklinika müəssisəsi və s. istifadəyə verilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Qonşu dövlətlərin gömrük sahəsində əməkdaşlığının perspektivlərinə dair müzakirələr aparılıb

Dekabrın 9-da Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Rusiya Federasiyası Federal Gömrük Xidməti rəhbərinin müavini Andrey Strukov ilə görüşüb.

DGK-nın Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, komitə sədri Azərbaycan ilə Rusiya arasındakı mehriban qonşuluq və əməkdaşlıq münasibətlərindən məmnunluqla bəhs edib və iki ölkənin işgüzar, peşəkar əlaqələrə malik olan gömrük orqanlarının bu münasibətlərin inkişafına öz töhfəsini verdiyini diqqətə çatdırıb.

Son illərdə Prezident İlham Əliyev tərəfindən gömrük sistemində həyata keçirilən islahatlar barədə məlumat verən S.Mehdiyev tətbiq edilən yeniliklər hesabına gömrük prosedurlarının daha da sadələşdirildiyini, sərhədkeçmə vaxtının minimuma endirildiyini, şəffaflığın təmin olunduğunu, beynəlxalq ticarətin asan və sürətli şəkildə həyata keçirilməsi, ölkənin tranzit imkanlarının artırılmasında mühüm nailiyyətlərin əldə edildiyini bildirib.

Komitə sədri Azərbaycanın xarici ticarət dövriyyəsində Rusiyanın xüsusi çəkiyə malik olduğunu vurğulayıb, iki ölkənin iqtisadi və ticarət münasibətlərinin daha da inkişaf etdirilməsi üçün mövcud olan əlavə imkanlardan səmərəli istifadə olunacağına əminliyini ifadə edib.

Rusiya Federal Gömrük Xidməti rəhbərinin müavini A.Strukov Azərbaycan və Rusiya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini, bütün sahələrdə, o cümlədən gömrük sferasında qarşılıqlı əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayıb, əlaqələrin perspektivlərindən danışıb.

Görüşdə, eyni zamanda, qarşılıqlı maraq doğuran bir sıra məsələlər barəsində fikir mübadiləsi aparılıb.

# Pirallahıda dərman istehsalı müəssisəsi açılıb

Dekabrın 9-da Pirallahı Sənaye Parkının daha bir rezidenti - dərman vasitələrinin istehsalı üzrə ixtisaslaşmış Azərbaycan-Rusiya birgə müəssisəsi "R-Pharm"ın açılışı olub.

AZƏRTAC xəbər verir ki, bununla bağlı keçirilən mərasimdə Azərbaycan Respublikasının Baş Nazirinin müavini Şahin Mustafayev, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Rusiyanın İqtisadi İnkişaf naziri Maksim Oreşkin və "R-Pharm" Direktorlar Şurasının sədri Aleksey Repik iştirak ediblər.



Məlumat verilib ki, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin davamlı inkişafının təmin edilməsi, istehsal sahəsində məşğulluğun artırılması məqsədilə ölkədə sənaye parkları yaradılır. Hazırda Azərbaycanda kimya sənayesi, təkrar emal, yüngül sənaye, gəmiqayırma, əczaçılıq sahələrində ixtisaslaşmış 5 sənaye parkı fəaliyyət göstərir. Sənaye parklarında sahibkarlar üçün bütün zəruri şərait yaradılıb. Bundan əlavə, sənaye parklarının rezidentləri 7 il müddətinə mənfəət, əmlak, torpaq vergisindən, habelə texnika, texnoloji avadanlıq və qurğuların idxalı üzrə ƏDV-dən və gömrük rüsumundan azad edilirlər.

4,6 hektar ərazidə yerləşən zavodun tikintisinə 2018-ci ildə başlanılıb. Müəssisə Avropa ölkələrinin aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıq və texnologiyalarla təchiz olunub. İnvestisiya dəyəri 74 milyon ABŞ dolları olan müəssisənin illik istehsal gücü 250 milyon ədəd həb və kapsul təşkil edəcək. Zavod laboratoriya, istehsal və logistika bölmələri də daxil olmaqla ölkədə ilk əczaçılıq kompleksi olacaq. İstehsal olunan məhsulların daxili bazarla yanaşı, xarici ölkələrə ixracı da nəzərdə tutulur.

Bildirilib ki, Pirallahı Sənaye Parkı Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 sentyabr tarixli Sərəncamına əsasən, ölkədə əczaçılıq sənayesinin inkişafı və dəstəklənməsi, əczaçılıq məhsullarının idxalından asılılığın azaldılması, əhalinin dərman vasitələrinə tələbatının ödənilməsində yerli istehsalın təşviqi və istehsal sahəsində məşğulluğun artırılması məqsədilə Pirallahı rayonunun ərazisində təşkil edilib və müvafiq infrastruktur yaradılıb. Hazırda Pirallahı Sənaye Parkında 5 rezident qeydiyyata alınıb və layihələr üzrə 650-dək daimi iş yerinin açılması nəzərdə tutulur. Sənaye parkında artıq bir müəssisə - "Diamed Co" MMC fəaliyyət göstərir.

# Rusiyanın İqtisadi İnkişaf naziri Şəhidlər xiyabanını ziyarət edib



Azərbaycanda səfərdə olan Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri, Rusiya-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyəti dekabrın 9-da Şəhidlər xiyabanına gələrək ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərdə həyata keçirilən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Azərbaycanla Rusiya innovativ inkişaf və rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlığın inkişafına dair Tədbirlər Planı hazırlayacaq

Dekabrın 9-da İqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizdə səfərdə olan Rusiyanın İqtisadi İnkişaf naziri Maksim Oreşkinlə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında qarşılıqlı iqtisadi əlaqələr və əməkdaşlığın genişləndirilməsi istiqamətləri müzakirə olunub.



Daha sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında Niyyət Protokolu imzalanıb. Sənədi İqtisadiyyat naziri M.Cabbarov və Rusiyanın İqtisadi İnkişaf naziri M.Oreşkin imzalayıblar.

Niyyət Protokolu noyabrın 20-25-də Rusiyaya rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında innovasiyalar və insan kapitalının inkişafı sahəsində ikitərəfli əməkdaşlığın genişləndirilməsi barədə əldə olunmuş razılaşmaların həyata keçirilməsini ehtiva edir. Sənədə əsasən, tərəflər protokolun imzalandığı tarixdən 3 ay müddətində "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə 2024-cü ilədək Fəaliyyət Planı"na daxil ediləcək innovativ inkişaf və rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlığın inkişafına dair Tədbirlər Planı ("Yol Xəritəsi") hazırlayacaq.

Tədbirlər Planı innovasiyalar və rəqəmsal iqtisadiyyat sahələrində əməkdaşlıq istiqamətində birgə layihələr və tədbirlərin müzakirəsi üçün müvafiq Ekspert İşçi Qrupunun yaradılması, Rusiyanın aparıcı ali təhsil müəssisələri ilə əməkdaşlıq etməklə Azərbaycanda İnnovasiya, Elm və Texnologiya Mərkəzinin yaradılması və birgə idarə olunması, həmçinin Müştərək Vençur Fondunun təşkili imkanlarına baxılması və digər məsələləri əhatə edəcək.

# Bakıda Helikopterlərin təmiri və texniki xidmət mərkəzinin inşası başlanılıb

## Mərkəz regionda bu tipli yeganə müəssisə olacaq

Dekabrın 9-da "Zabrat" aeroportunun ərazisində Helikopterlərin təmiri və texniki xidmət mərkəzinin təməlqoyma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, yeni mərkəz mülki aviasiyanın inkişafı ilə bağlı iqtisadi əməkdaşlıq sahəsində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının qərarlarına əsasən birgə layihələrin icrası çərçivəsində tikiləcək və regionda bu tipli yeganə müəssisə olacaq. Layihə "Rusiya Helikopterləri" səhmdar cəmiyyəti ilə birgə həyata keçiriləcək. Müvafiq saziş "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov və "Rusiya Helikopterləri" SC-nin baş direktoru Andrey Boginskiy tərəfindən imzalanıb.




Təməlqoyma mərasimində Azərbaycan Respublikasının Baş Nazirinin müavini, Azərbaycan-Rusiya Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Şahin Mustafayev, Rusiyanın İqtisadi İnkişaf naziri, Rusiya-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Maksim Oreşkin və Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov iştirak ediblər. Tikinti üçün ayrılmış ərazi ilə tanışlıqdan sonra təməlqoyma mərasimi keçirilib və rəmzi kapsul bünövrə çalasına buraxılıb.

Helikopterlərin təmiri və texniki xidmət mərkəzinin yaradılması Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafı ilə bağlı iqtisadi siyasətinin davamıdır. Mərkəz Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin möhkəmlənməsinə xidmət edəcək, həmçinin yüksək kvalifikasiyalı mütəxəssislər üçün yeni iş yerləri yaradacaq və ölkənin müxtəlif məqsədlər üçün istifadə olunan helikopter parkını əhatə etməklə yanaşı, gələcəkdə təmir üçün Rusiya helikopter avadanlıqlarının regional operatorlarını da cəlb edəcək.

Xidmət mərkəzinin fəaliyyətə başladığı ilk illərdə 4-6 müxtəlif modifikasiyalı helikopterin təmiri, daha sonra isə istehsal gücünün ildə 8-10 vintqanadlı maşının təmirinə kimi artırılması planlaşdırılır.

Azərbaycan ərazisində belə bir unikal və rəqabətqabiliyyətli müəssisənin yaradılması ölkədə kiçik aviasiyanın inkişafında, aviasiya sektorunda yeni kadrların hazırlanmasında uğurun növbəti açarı olacaq.

# Hacıqabul Sənaye Məhəlləsində Rusiya şirkətinin İzolyasiya Materiallarının İstehsalı Zavodunun təməli qoyulub

Dekabrın 9-da Hacıqabul Sənaye Məhəlləsində Rusiyanın "Penopleks SPB" şirkətinin İzolyasiya Materiallarının İstehsalı Zavodunun təməlqoyma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov, Rusiyanın İqtisadi İnkişaf nazirinin müavini Azər Talıbov, "Penopleks SPB" şirkətinin rəhbərliyi, Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Rüstəm Xəlilov və digər rəsmi şəxslər iştirak ediblər.



Məlumat verilib ki, Hacıqabul Sənaye Məhəlləsində həyata keçiriləcək "Penopolistiroldan istilik izolyasiya plitələrin istehsalı" layihəsi penopolistiroldan istilik izolyasiya piltələrin istehsalını nəzərdə tutur. İllik istehsalat həcmi 100 min kubmetr, investisiya dəyəri isə 6,5 milyon ABŞ dollarıdır. Müəssisənin ərazisi 7 hektar olacaq, iş yerlərinin sayı isə 78 nəfərdir. Layihə üzrə istehsal ediləcək məhsulların əsas satış bazarı Azərbaycan, Gürcüstan, İran, Qazaxıstan və Rusiya olacaq.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov deyib ki, Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindən biri Azərbaycan iqtisadiyyatının davamlı və dayanıqlı inkişafının təmin edilməsindən ibarətdir. Bu siyasət çərçivəsində ölkəmizdə genişmiqyaslı sənayeləşdirmə siyasəti aparılır. Bu baxımdan Azərbaycan üçün həm yeni, həm ənənəvi sənaye sahələrinin inkişafının təmin olunması istiqamətində sistemli işlər həyata keçirilir. Xüsusən də Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına çox ciddi diqqət yetirilir. Bu çərçivədə regionlarda sənayeləşmənin həyata keçirilməsinə, sənaye sahəsində məşğulluğun təmin olunmasına, insanların rifah halının yüksəldilməsinə böyük diqqət yetirilir. Dövlət başçısının təşəbbüsü ilə Azərbaycanda sənayeləşmə siyasəti çərçivəsində sənaye zonalarının yaradılması istiqamətində mühüm işlər icra edilməkdədir.

N.Səfərov qeyd edib ki, hazırda Azərbaycanda 5 sənaye məhəlləsi yaradılıb. Ümumilikdə bu sənaye zonalarında 83 rezident fəaliyyət göstərir. Burada minlərlə iş yerinin açılması nəzərdə tutulub. Hacıqabul Sənaye Məhəlləsində artıq tikinti işləri yekunlaşıb və 10 rezident qeydiyyata alınıb. Onlardan 2-si artıq fəaliyyətə başlayıb, digərlərində avadanlıqlar qurulub, sınaq rejimində fəaliyyət təmin olunur: "Azərbaycana xaricdən investisiyaların cəlb edilməsi ilə bağlı ölkə başçısının siyasətinə, tapşırıqlarına uyğun olaraq işlər həyata keçirilir. Biz bir çox dost, partnyor ölkələrlə, o cümlədən Rusiya Federasiyasından olan şirkətlərlə də danışıqlar aparırıq. Hacıqabul Sənaye Məhəlləsində tikinti materiallarının istehsalı üzrə zavodun tikintisi üçün Rusiya şirkəti ilə razılığa gəlinib. Bu, həm yerli bazarın tələbatının ödənilməsi üçün, həm də ixracın təmin olunması üçün mühüm əhəmiyyət kəsb edir. Həmin zavodda 100-dək insan işlə təmin olunacaq. Bu, Azərbaycanla Rusiya arasında əməkdaşlığın çox gözəl göstəricisidir".

Rusiyanın İqtisadi İnkişaf nazirinin müavini Azər Talıbov isə bildirib ki, bu müəssisənin açılışı iki ölkə arasındakı iqtisadi əlaqələrin düzgün istiqamətdə inkişaf etdiyini göstərir: "Bu gün, həmçinin "QAZel" avtomobillərinin istehsalı zavodunun inşası işləri ilə tanış olduq. Düşünürəm ki, gələn ilin birinci rübünün sonunda həmin zavodda istehsala başlanacaq".

Məlumat verilib ki, 1998-ci ildə yaradılan və baş ofisi Sankt-Peterburqda yerləşən "Penopleks SPB" MMC-nin əsas fəaliyyət sahəsi polimer əsaslı istilik və su izolyasiyası, eləcə də dekorativ-tətbiqi materialların istehsalıdır. Müəssisə penopolistiroldan hazırlanan istilik izolyasiya piltələr, ekstruziya izolyasiyası və dekorativ-tətbiqi materialları, ümumi təyinatlı polistirol istehsal edilir. İllik istehsal gücü 3 milyon kubmetr olan müəssisənin məhsullarının üstünlükləri onların sıxılmaya qarşı yüksək davamlılığının, sıfır su udma qabiliyyətinin, dəyişməz aşağı istilik keçiricilik əmsalının, piltələrin yüngül çəkisi və rahat həndəsi forması, tam biostabil davamlılığının, ekoloji və materialların uzunömürlü olmasıdır. Şirkətin mövcud zavodları 8-i Rusiyada, biri Qazaxıstan və biri Özbəkistanda fəaliyyət göstərir. Məhsullar əsasən divarların, damların, kürsülərin, fundamentlərin, yaşayış və ticarət binalarının eyvanlarının, heyvandarlıq fermalarının, istixanaların, mühəndis kommunikasiya xətlərinin, soyuducuların, idman tikililərinin, seysmoloji cəhətdən təhlükəli ərazilərdə bina və tikililərin deformasiya tikişlərinin izolyasiyasında istifadə olunur.

Tədbir iştirakçıları Hacıqabul Sənaye Məhəlləsində sahibkarlar üçün yaradılmış şəraitlə, həmçinin "QAZel" avtomobillərinin istehsalı zavodunun tikintisi işləri ilə də tanış olublar. Bildirilib ki, Hacıqabul Sənaye Məhəlləsində dövlət tərəfindən sahibkarlar üçün bütün zəruri infrastruktur yaradılıb. İyirmi hektar ərazidə yaradılmış sənaye məhəlləsi 10 min kvadratmetr olan 4 istehsal təyinatlı binadan, 937 kvadratmetr olan inzibati və texniki binalardan ibarətdir. Hacıqabul Sənaye Məhəlləsinin inzibati binası toplantı və təlimlərin keçirilməsi üçün iclas otağı, məhəllənin iştirakçılarına müxtəlif xidmətlər göstərəcək müasir ofis sahələri, sərgi-satış mərkəzi, tibb məntəqəsi, poçt, yeməkxana və idarəedici təşkilatın istifadəsi üçün nəzərdə tutulan sahələrdən ibarətdir. Sənaye məhəlləsində sahibkarlara mühasibatlıq, hüquq, bank və sığorta, poçt və internet, logistika, tibbi xidmətlər göstəriləcək. Burada ümumi dəyəri 60 milyon manatdan çox olan layihələr üzrə maşınqayırma, kompozit materialları, avtomobil, tikinti materiallarının istehsalı üçün avadanlıqlar, gübrə, plastik qablar, tikinti materialları istehsalında istifadə olunan avadanlıqların istehsalı sahələri yaradılıb. Bu layihələr çərçivəsində 900-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Hazırda istehsal sahələrində avadanlıqların yerləşdirilməsi və istehsala hazırlıq işləri aparılır.

# "Kreativ Azərbaycan" portalının təqdimatı olub

Dekabrın 9-da Bakı Konqres Mərkəzində "Kreativ Azərbaycan" portalının (kreativ.az) təqdimatı və "Yaradıcı sənayelər: dayanıqlı inkişaf və məşğulluq üçün yeni imkanlar" mövzusunda nazirlərin panel müzakirəsi keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbiri Mədəniyyət naziri Əbülfəs Qarayev açaraq son illər ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlardan danışıb. Nazir mövzu üzrə panel iclasa qatılan həmkarlarına və yaradıcı təşkilatların nümayəndələrinə belə bir vacib təqdimatda iştirak etdiklərinə görə təşəkkürünü bildirib. Diqqətə çatdırılıb ki, son 10 ildə dünyada yaradıcı sənaye anlayışı geniş populyarlıq qazanıb. Sənayenin bu sahəsi insanların cəmiyyətin inkişafına dəyərli töhfələr verməyinə şərait yaradır. "Azərbaycan da, təbii ki, bu sahədəki tendensiyalardan kənarda qala bilməz. Ölkəmizdə qeyri-neft sektorunun inkişafı və islahatların daha sürətlə davam etdirilməsinin zəruriliyini, eləcə də yaradıcı iqtisadiyyat kontekstində yaradıcı sənayelərin milli iqtisadiyyatda vacib rola malik olduğunu və perspektiv imkanlar açdığını nəzərə alaraq, bu sənaye sahələrinin inkişafı və yaradıcılıq proseslərinin iqtisadi və sosial təsirlərinin artırılması istiqamətində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi ilə müxtəlif layihələr həyata keçirilir. Bu prosesin arxasında yaradıcı potensialı, vətənə məhəbbəti və xalqla dövlətin vəhdəti dayanır. Bütün bu amillər artıq Azərbaycanda da yaradıcı sənayenin formalaşdırılmasına, onun təkmilləşdirilməsinə ehtiyac olduğunu sübut edir", - deyə nazir vurğulayıb.

Qeyd olunub ki, hazırda Azərbaycanda yaradıcı sənaye vahid idarəetmə və təchizat kimi hələ də cəmiyyət tərəfindən tam qəbul olunmayıb: "Bu sahəyə yeni təfəkkür gətirmək, təkan vermək vacibdir. Bugünkü tədbirin əsas məqsədlərindən biri də bundan ibarətdir. 2021-ci il Birləşmiş Millətlər Təşkilatı tərəfindən "Yaradıcı sənayelər davamlı inkişaf naminə ili" kimi qəbul olunub. Eyni zamanda, bu il Bakı şəhəri UNESKO-nun "Yaradıcı şəhərlər şəbəkəsi"nə daxil edilib. Paytaxtımız dizayn sahəsi üzrə yaradıcı şəhər adını uzun müddət daşıyaraq öz fəaliyyəti ilə dünya ictimaiyyətinə bu yüksək ada layiq olduğunu sübut etməlidir. Biz hamımız bunun üçün bərabər çalışmalı, daha mütərəqqi ideyalarla çıxış etməliyik. Bu işdə həm dövlət orqanları, həm sənaye nümayəndələri, həm də vətəndaşlar fəal iştirak etməlidirlər. Hesab edirəm ki, bugünkü görüş böyük bir tapşırığın yerinə yetirilməsinin ilk addımıdır. Bu günlərdə Mədəniyyət Nazirliyində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Katibliyinin nümayəndələri ilə görüş keçirilib, müzakirələr aparılıb. Düşünürəm ki, artıq yaradıcı sənaye sahəsində sistemli işlərə bu gündən start verilir".

Daha sonra yaradıcı sənaye ilə bağlı videotəqdimat diqqətə çatdırılıb.

Mədəniyyət Nazirliyinin Aparat rəhbərinin müavini - Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə "Yaradıcı sənayelər: qlobal trendlər və yerli imkanlar" mövzusunda çıxış edib. Qeyd olunub ki, Azərbaycan xalqının tarixi və mədəniyyətinin dünya miqyasında tanıdılması uğurla həyata keçirilir. Aparılan düşünülmüş sistemli siyasət nəticəsində Azərbaycanın üç tarixi abidəsi-məkanı UNESKO tərəfindən dünya irsi elan edilib. 13 qeyri-maddi mədəni irs nümunəmiz isə UNESKO-nun müxtəlif siyahılarında yer alıb. Bakı və Şəki şəhərlərinin yaradıcı şəhər elan edilməsi də bu qəbildəndir.

Şöbə müdiri bildirib ki, 2008-ci ildə Prezident İlham Əliyevin irəli sürdüyü mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi" təşəbbüsü BMT tərəfindən dünyanın ən vacib qlobal platforması elan edilib: "Bakı Prosesi" təkcə mədəniyyətlər və dinlərarası dialoq deyil, eyni zamanda, dünyada inkişaf və təcrübələrin mübadiləsi üçün bir qlobal platformadır. Bu gün biz yaradıcı sənayenin bir çox parametrlərinə toxunacağıq. Məlumdur ki, hazırda dünyada zəka, intellekt yarışı gedir. Bu əsr IV sənaye inqilabı kimi qiymətləndirilir. Bu inqilabın ən vacib elementlərindən biri ondan ibarətdir ki, insanların biri-birinə olan münasibəti, daha doğrusu, əməyə olan münasibəti tamamilə dəyişib. Bu kontekstdə yaradıcılıq ən üstün qabiliyyət kimi bu inqilabın vacib elementi kimi önə çıxıb".

Vasif Eyvazzadə daha sonra dünya miqyasında yaradıcı sənayenin artım dinamikası ilə bağlı rəqəmləri təqdim edib. Dünya üzrə 7,3 faiz göstəricisi olan yaradıcı sənaye ÜDM-in 6,1 faizini əhatə edir və 4,3 trilyon ABŞ dolları məbləğindədir. Bu rəqəmin 2,5 trilyon dolları tam olaraq gəliri təşkil edir.

"Kreativ Azərbaycan" portalı haqqında məlumat verən Mədəniyyət Nazirliyinin Beynəlxalq layihələr və innovasiyalar sektorunun müdiri Ramil Abbəkirov bildirib ki, portal Mədəniyyət Nazirliyi tərəfindən sahəvi inkişaf proseslərinə dair aktiv təbliğat və maarifləndirmə işlərinin aparılması üçün yaradılıb. Portal üzərində iki il iş aparılıb və 15 ölkənin təcrübəsi öyrənilib. Portalda müxtəlif növ xəbərlər, tədbirlər, bu sahədə fəaliyyət göstərən şirkətlər və s. haqqında məlumatlar əks olunub. Həmçinin yaradıcı sənaye iştirakçılarının şəbəkələşməsinə dəstək verəcək nüanslar nəzərə alınıb.

Bildirilib ki, portalın yaradılmasında məqsəd həm də Azərbaycanın yaradıcılıq məhsullarının "Kreativ Azərbaycan" brendi altında təşviqidir. Sektor müdiri portalın bölmələri haqqında ətraflı məlumat verib, burada hər bir sahənin, yaradıcı sənayenin müxtəlif şəbəkələrinin, özəl və dövlət qurumları ilə birbaşa əlaqələrinin əhatə olunduğunu deyib.

Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri Kamran İmanov Azərbaycanın bu gün ölkə rəhbərliyinin təşəbbüsü ilə başlanmış və inkişaf üçün bütün imkanları optimallaşdırmağa yönələn islahatların yeni mərhələsindən keçdiyini, cəmiyyət həyatının bütün sahələrini əhatə etdiyini vurğulayıb. Qeyd edib ki, islahatçı ölkələrin avanqardına daxil olan Azərbaycan "Doing Business - 2020" hesabatında islahatçı 20 ölkə sırasına daxil edilib. Sədr əqli mülkiyyətin rolu, kreativ sənaye ilə əqli mülkiyyətin fərqi, bu sahələrin idarə edilməsi haqqında söz açıb.

Yaradıcı sənayenin fəlsəfi kateqoriyasının səlis anlayışa malik olmadığını diqqətə çatdıran Kamran İmanov müəlliflik hüququnun yaradıcı əməyin nəticəsi kimi anlamının hüquqi tərəflərinin kateqoriyaları haqqında məlumat verib.

Təqdimat mərasiminin ardından "Yaradıcı sənayelər: dayanıqlı inkişaf və məşğulluq üçün yeni imkanlar" mövzusunda panel sessiyası keçirilib. Sessiyada Azərbaycanda yaradıcı sənayenin inkişafı məsələləri ilə bağlı fikirlər səsləndirilib.

Təhsil naziri Ceyhun Bayramov diqqətə çatdırıb ki, ali və peşə təhsili müəssisələri yaradıcı sənaye sahəsində daha fəal olmalıdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Azərbaycanda bu sahədə imkanların genişliyindən söz açıb, yaradıcı sənayenin inkişafına dəstək verməyə hazır olduqlarını bildirib: "Biz yaradıcı sənaye ilə məşğul olan insanların hüquqlarının qorunmasına dəstək verəcəyik. Yaradıcı sənayenin əlilliyi olan şəxslər üçün də potensialı böyükdür".

Sahil Babayev əlillərdən ibarət olan teatr truppasının yaradılmasını alqışlayaraq yaradıcı sənayenin inkişafı ilə bağlı atılan bu təşəbbüsü yüksək dəyərləndirib.

İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova yaradıcı sənaye sahəsində yeni modelə keçid və iqtisadiyyatın bu sahə üzrə təkmilləşməsinin vacibliyini diqqətə çatdırıb.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Anar Quliyev yaradıcı şəhərlər statusunun dünya təcrübəsində mövzusunda fikirlərini bölüşüb. O, Azərbaycanda bu sahədə aparılan işlər, Mədəniyyət Nazirliyinin komitəyə təklifləri və görüləcək işlərlə bağlı məlumat verib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini Əli Abdullayev yaradıcı sənayenin inkişafının müasir texnoloji yeniliklərsiz ötüşmədiyini və nazirliyin bu sahədə həyata keçirdiyi layihələrdən danışıb.

"British Council" təşkilatının Azərbaycan üzrə ofisinin rəhbəri Samr Şah vurğulayıb ki, təşkilatın məqsədi incəsənət vasitəsilə beynəlxalq anlaşma yaratmaqdır. Buna görə də yaradıcı sənaye "British Council" üçün əsas fəaliyyət sahəsi hesab olunur: "Bizim missiyamız incəsənət vasitəsilə bir araya gəlməyin və bir-birimizi başa düşməyin yeni yollarını axtarmaqdır".

Panel sessiya iştirakçıların suallarının cavablandırılması ilə davam edib.

*Azərbaycanın özü qədər əbədi*



# Əbədiyaşar ömür

## Heydər Əliyevin tərcümeyi-halı Azərbaycanın müstəqillik, qurtuluş, inkişaf tarixinin ən şanlı səhifəsidir

*Əvvəli 1-ci səh.*

Ümummilli Lider Heydər Əliyevin müstəsna missiya ilə müasir Azərbaycan dövlətinin ideoloji-siyasi əsaslarını milli irs və düşüncə əsasında yaradaraq təcrübi surətdə həyata keçirmiş böyük şəxsiyyət olduğu danılmaz həqiqətdir. Ulu Öndərin siyasi kimliyi xalqımızın uzun minillikləri əhatə edən dövlətçilik tarixində iz qoymuş görkəmli şəxsiyyətlərin ən müsbət cəhətlərinin ümumiləşmiş obrazıdır. O, Azərbaycanın müasir tarixini əhatə edən, zaman baxımından bir qərinəlik, mahiyyətcə isə əhəmiyyəti əsrlərlə ölçülən mərhələsində həm dünya şöhrətli uzaqgörən siyasi və dövlət xadimi, mahir və yenilməz sərkərdə, iqtisadi-mədəni intibahın memarı və milli-mənəvi mədəniyyətin böyük hamisi, yorulmaz vətənpərvər və polad əqidəli vətəndaş, görkəmli mütəfəkkir və milli ziyalılığın öndəri kimi titanik fəaliyyət göstərmişdir. Bu dahi insan dövlət idarəçiliyinin hər bir mərhələsində vətəninə, xalqına sonsuz məhəbbət və sədaqət hissi ilə yanaşmış, milli ideallara daxilən bağlı olmuşdur.

Ümummilli Lider unikal bir siyasi məktəbin, mükəmməl dövlətçilik və idarəçilik sisteminin banisi, milli inkişafı şərtləndirən ideoloji-siyasi irsin müəllifi kimi əbədiyaşarlıq qazanıbdır. Bütün bunlar bir dəyər altında birləşmişdir: Heydər Əliyev böyük Azərbaycanlı idi. Ulu Öndərin zamanın fövqündə duran müdrikliyi ilə böyük həyat təcrübəsinin vəhdəti onu iki əsrin dahisinə çevirmişdir.

Ulu Öndər Heydər Əliyevin vəfatından on altı il keçir. Ötən illər ərzində xalqımız bütün şüurlu həyatını Azərbaycanın tərəqqisinə həsr etmiş dahi oğlunu bir an belə unutmayıbdır. Onun uyuduğu Fəxri xiyabandan ziyarətçi ayağı heç vaxt kəsilməyibdir. Bu günlər Azərbaycanın bütün bölgələrində, o cümlədən paytaxt Bakıda, xarici ölkələrdə Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr edilmiş anım mərasimləri keçirilir.

Hər il olduğu kimi, bu il də dekabrın 12-də insanlar səhər tezdən Fəxri xiyabana axışacaqlar. Axışırlar ki, müasir tariximizin 35 illik çox mühüm bir dövründə silinməz iz qoymuş bu böyük insanın, unudulmaz şəxsiyyətin xatirəsinə ehtiramlarını bildirsinlər. Və bu anda bir daha Heydər Əliyev şəxsiyyəti, onun görkəmli fəaliyyəti barədə düşünmək mənəvi borcumuza çevrilir.

Bu gün Ulu Öndəri tanıyan hər bir insan Heydər Əliyev şəxsiyyətinin ucalığı barədə fikir yürütməyə ehtiyac duyur. Ümummilli Liderin parlaq şəxsiyyəti ilə bağlı ən müxtəlif fikir və mülahizələr, xoş xatirələr isə sonda bir nöqtədə birləşir: Heydər Əliyev həyatını istisnasız olaraq Azərbaycana həsr etmişdi. Bu böyük insan haqqında deyilən sözlər yalnız ifadə üslubuna görə fərqlənir, məzmunsa Heydər Əliyev şəxsiyyətinin böyüklüyünün ən müxtəlif tərəflər üzrə ifadəsindən ibarətdir.

Ziyarətə gələnlər yaxşı bilirlər ki, *"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi və mədəni inkişafına xidmət olmuşdur"* deyən Ulu Öndər Heydər Əliyev 35 ildən artıq bir müddətdə - istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya dövlətləri sırasında layiqli yerə çıxarıbdır. Azərbaycan tarixinin Heydər Əliyev mərhələsi kimi qiymətləndirilən bu dövr sadəcə təqvim göstəricisi deyil. Bu dövr Azərbaycan üçün yeni üfüqlər, yeni zirvələr deməkdir. Bu dövr bir-birindən zaman və ictimai-siyasi formasiya baxımından fərqlənən iki mərhələ ilə (1969-1982 və 1993-2003-cü illər) xarakterizə olunsa da, əslində, Ulu Öndərin vətənə fədakar xidməti və hakimiyyətinin hər iki mərhələsində ölkəmizin nəhəng miqyasda nailiyyətlər qazanması baxımından oxşardır. Başqa sözlə, eyni missiyanın, sadəcə, iki mərhələsidir.

Böyük strateq Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqilliyinə qovuşacaq respublikamızın sabahına hesablanmış digər məqsədyönlü addımları ilə özünün Ümummilli Lider obrazını yaratmış, tarix isə dahi şəxsiyyətin bu statusunu bütün mərhələlərdə qorumuşdur. Azərbaycan xalqı özünün müstəqil inkişaf yolunda məhz Ulu Öndər Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə əsası qoyulmuş zəngin iqtisadi-siyasi, mənəvi və intellektual potensiala istinad etmişdir. Heydər Əliyev o illərdə respublikanı nəhəng tikinti meydançasına çevirərkən, irimiqyaslı obyektlərin, strateji əhəmiyyətli sənaye müəssisələrinin inşasına xüsusi əhəmiyyət verərkən, bir sıra yeni təhsil ocaqları, o cümlədən Cəmşid Naxçıvanski adına Hərbi Məktəbi yaradarkən, mədəniyyətin, fundamental və tətbiqi elmlərin sıçrayışlı inkişafına nail olarkən məhz bugünkü və gələcək tərəqqinin, dinamik sosial-iqtisadi inkişafın möhkəm təməlini qoymuşdur. Bu nöqteyi-nəzərdən Azərbaycan xalqının müstəqil dövlətdə yaşamaq idealının real, dayanıqlı əsaslar üzərində gerçəkləşərək əbədiləşməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev respublikaya birinci rəhbərliyi dövründə bu reallığı da yaxşı bilirdi ki, xalqın siyasi müstəqilliyinin təməlini məhz onun iqtisadi azadlığı şərtləndirir. Təsadufi deyil ki, 1969-1982-ci illərdə iqtisadi həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər miqyasına görə Azərbaycanın şanlı quruculuq salnaməsinin ən dolğun, şərəfli səhifələrini təşkil edir. Müstəqil Azərbaycanın keçid dövrünü başa vuraraq dünya iqtisadiyyatına sürətlə inteqrasiya edən qüdrətli dövlətə çevrilməsinin hazırkı möhkəm təməli də məhz Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə formalaşdırdığı güclü iqtisadi bünövrəyə söykənir. Ulu Öndər ölkənin gələcəyini, müstəqilliyini düşünərək SSRİ rəhbərliyi qarşısında təkidli tələblər irəli sürür, strateji əhəmiyyətli bir sıra sənaye və istehsal müəssisələrinin respublikada inşasına nail olurdu.

Keçmiş Sovet İttifaqı kimi böyük dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək respublikanı tərəqqi yoluna çıxaran Heydər Əliyev yeni və mütərəqqi sənaye sahələrinin yaradılması istiqamətində də mühüm tədbirlər həyata keçirmişdir. Həmin illərdə respublikanın bütün bölgələrinin inkişafı, istehsalla bilavasitə bağlı elmi-tədqiqat sahələrinin genişləndirilməsi sahəsində kompleks tədbirlər görülmüş, elmi-texniki tərəqqinin nailiyyətləri, mütərəqqi texnologiyaların istehsalatda tətbiqi Azərbaycanın ittifaq miqyasında öncül mövqelərə çıxmasına, ölkənin sosial-iqtisadi həyatında yüksəlişinə təkan vermişdir.

Ulu Öndər tərəfindən görülən böyük işlərin, onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyalarının məntiqi nəticəsidir ki, bu gün xalqımız demokratik və hüquqi dövlətdə yaşamaq imkanı əldə edib, xoşbəxt gələcəyi üçün bütün təminatları yaradıb, ən başlıcası isə siyasi və iqtisadi müstəqilliyə nail olubdur.

Ümummilli Lider Heydər Əliyev fəaliyyəti boyu nə iş görübsə, orada azərbaycançılıq məfkurəsinin izləri vardır. Bu məfkurə müstəqillik illərində daha da inkişaf edib, müstəqil dövlətimizin sarsılmaz dayaqlarından birinə çevrilibdir. Bu gün Azərbaycanda hansı sahəyə üz tuturuqsa, orada Ümummilli Liderin təməlini qoyduğu möhtəşəm işlərin yadigarlarını görürük. Böyük Öndərin milli dövlətçilik konsepsiyası müstəqil dövlətçiliyimizin bundan sonrakı inkişafının bütün mərhələlərini əhatə edəcək qədər uzaqgörən və bəşəridir.

Bəşəriyyətin dünyaya bəxş etdiyi az sayda şəxsiyyətlər vardır ki, tarixdə onların bənzəri olmur, onlar insanlığın təkrarsız zirvəsi olur və bəşəriyyət tarixində silinməz iz qoyur, insanlıq tarixində əbədiyaşarlıq qazanırlar. Hər bir tarixi şəxsiyyətin xidmətləri mənsub olduğu xalqın yaddaşında əbədi qalır, ancaq bununla məhdudlaşmır. Azərbaycan xalqının görkəmli oğlu Heydər Əliyev məhz həmin şəxsiyyətlərdəndir. Dövlət xadimi kimi Ulu Öndər Azərbaycan üçün əvəzedilməzdir. Müstəqil demokratik dövlətin memarı olan Heydər Əliyev həm də ölkənin müasirləşməsinin başlıca xəttini müəyyənləşdirmiş insandır. Onun işləyib hazırladığı inkişaf konsepsiyası zamanın bütün sınaqlarından uğurla çıxaraq Azərbaycanı zirvələrdən zirvələrə aparmaqdadır.

Heydər Əliyev - Azərbaycan xalqının böyük dövlətçilik istedadına və zəngin təcrübəyə malik olan nadir tarixi şəxsiyyət, xalqın və ölkənin taleyində xüsusi rolu olan görkəmli dövlət xadimidir. Tarixə Azərbaycan xalqının Ümummilli Lideri kimi daxil olmuş bu əvəzsiz insan liderlərə məxsus ən ali keyfiyyətlərə malik idi. Heydər Əliyevin şəxsiyyəti, siyasi portreti, liderliyi o qədər zəngin elementlərlə səciyyələnir ki, onu tam öyrənib başa çıxmaq çox çətindir. Bunun üçün nəhəng bir elmi-tədqiqat institutuna ehtiyac vardır.

Məhz onun xidmətləri sayəsində Azərbaycan keçmiş sovetlər birliyində hərtərəfli şəkildə inkişaf etmiş ölkələrdən birinə çevrilmişdir. Azərbaycanın dövlət müstəqilliyinin qurulması və möhkəmləndirilməsi də üzvi surətdə Heydər Əliyevin adı və mübarizəsi ilə bağlıdır.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə ölkədə hakimiyyətə qayıdışından sonra Azərbaycanın hüquqi-siyasi və sosial-iqtisadi inkişafı, vətəndaş cəmiyyəti quruculuğu, cəmiyyət həyatının müxtəlif sahələrinin tərəqqisi istiqamətində aparılan islahatlar, bu islahatlar nəticəsində yalnız ölkəmizdə deyil, hətta regionumuzda baş verən dəyişikliklər, mütərəqqi yeniliklər ən yaxın tariximizin siyasi reallığıdır. Milli istiqlaliyyətimizin 28-ci ilinə qədəm qoyduğumuz bu müddətdə xalqımız məhz görkəmli dövlət xadimi Heydər Əliyevin konseptual irsinə sadiq qaldığı üçün müstəqilliyini və suverenliyini qoruyub saxlamış, sürətli və hərtərəfli inkişaf yoluna qədəm qoymuş, zəruri demokratik islahatlar nəticəsində Avropa ailəsinə qoşulmuş, bu gününün və gələcəyinin rifahını təmin etmişdir. Ulu Öndərin əfsanəvi şəxsiyyətini, onun malik olduğu bilik və qabiliyyətləri fenomenal keyfiyyətləri ilə birlikdə tam xarakterizə etmək bütöv bir tarixi dövrü təsvir etmək qədər çətin bir elmi-ictimai vəzifədir. Lakin bir həqiqət artıq tarixin yaddaşına qızıl hərflərlə həkk olunmuşdur: Ulu Öndər Heydər Əliyevin bütünlüklə vətəninə, xalqına, dövlətinə, doğma torpağına həsr edilmiş həyat və fəaliyyətinin müasir müstəqil Azərbaycanla, onun tarixi ilə sıx bağlı və paralel olduğu danılmazdır.

XX əsrdə dövr, zaman xalqımızı bir neçə dəfə ağır imtahana, sınağa çəkmişdir. Sovet imperiyasının süqutu ərəfəsində - xalqımızın 1918-ci ildə qazandığı müstəqilliyin itirilməsindən 70 ildən artıq vaxt keçməsinə, nəsillərin dəyişməsinə baxmayaraq, qəlblərdəki azadlığı, müstəqillik arzusunu boğmaq mümkün olmamışdır. Ümummilli Liderimizin Azərbaycana rəhbərliyinin ilk dövründə, 1969-1982-ci illərdə həyata keçirdiyi ardıcıl milli dirçəliş konsepsiyasının bütöv sistem təşkil edən tarixi yubiley tədbirləri, ümumxalq mərasimləri, milli ziyalılığın gizli və açıq şəkildə qətiyyətlə dəstəklənməsi xalqımızın milli-tarixi yaddaşını məhv olmaqdan qurtardığı kimi, müstəqillik ərəfəsində və istiqlaliyyət illərində qlobal miqyaslı maddi-mənəvi səfərbərlik və quruculuq tədbirləri Azərbaycanın yaxın-uzaq imperiya maraqları ilə təhlükəyə məruz qoyulmuş dövlətçiliyini intibaha qovuşdurmuşdur.

1982-1987-ci illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Siyasi Büronun üzvü vəzifəsində işlədiyi dövrdə də böyük Öndərin həyatı və fəaliyyəti doğma xalqının mənafeyi ilə sarsılmaz şəkildə bağlı olmuş, hətta bütün türk xalqlarının maraqlarının ardıcıl müdafiəsinə yönəlmişdi.

Ulu Öndərimizin hələ sağlığında əfsanəvi, xarizmatik liderə çevrilməsində onun həyatı üçün heç bir riskdən çəkinməməsi, sözünü məqamında deməyi bacarması, milli ideallar uğrunda mübarizədə yüksək qətiyyət göstərməsi kimi xarakterik xüsusiyyətləri mühüm rol oynamışdır. Məhz bunun sayəsində Ulu Öndər daima hadisələrin fövqündə olmuş, idarəçilik qabiliyyətini reallaşdırmış, fenomen lider imicini qorumuşdur. Heydər Əliyev bütün zəngin və mənalı həyatı boyu daim xalqını, vətənini düşünmüş, Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, təbiətin bəxş etdiyi bir çox fitri keyfiyyətlər sayəsində tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan müəyyən edə bilmişdir. Hər bir fərdin maraq və mənafeyini özündə yüksək səviyyədə əks etdirən Heydər Əliyev siyasi kursunun davam etdirilməsi də, bu mənada, Azərbaycanda cəmiyyətin sosial sifarişinə çevrilmişdir.

Nüfuzlu siyasi liderlər, bir qayda olaraq, ictimai inkişafın ən böhranlı, dönüş anında məsuliyyəti çiyinlərinə götürərək bütöv bir xalqın, millətin xilaskarına çevrilirlər. Ulu Öndərin diqqəti çəkən fitri idarəçilik keyfiyyətləri sırasında onun ən ekstremal, çətin və millətin taleyi baxımından məsuliyyətli dönəmlərdə ictimai mənafeləri özündə tamamilə ehtiva edən qətiyyətli, eyni zamanda, yaranmış şərait üçün ən optimal qərarlar qəbul etmək məharəti heç zaman xatirələrdən silinməyəcəkdir. Öz liderinin müdrik, uzaq hədəflərə hesablanmış, qətiyyətli və çevik addımlar atmaq əzmindən yetərincə xəbərdar olan Azərbaycan xalqı ən çətin, mürəkkəb vəziyyətlərdə belə, arxayınlıq hissini itirmirdi. Təkcə bu səbəbdən ki, baş qaldıran təhlükələr, həyatın bu və digər mürəkkəblikləri, cılız siyasi kombinasiyalar Heydər Əliyev şəxsiyyətinin əzəməti qarşısında son dərəcə bəsit görünürdü. Azərbaycan xalqı qəti əminliklə öz liderinin ən çətin dövlətçilik sınaqlarından üzüağ çıxacağını düşünür, bu fövqəl şəxsiyyətin çətin situasiyalar üzərində növbəti zəfərini alqışlamağa hazırlaşırdı. Tale 1993-cü ildə Azərbaycanı növbəti dəfə çətin sınaqlarla üz-üzə qoyanda xalqın yeganə xilaskar kimi Heydər Əliyevi hakimiyyətdə görmək istəyi də məhz bu gerçəklikdən qaynaqlanırdı.

Ümummilli Lider xalqın çağırışına müsbət cavab verərək, qısa müddətdə milli dövlətçilik doktrinasını irəli sürərək, onun sürətli icrasına başlamışdır. Üzləşdiyi çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə cəsarətlə sinə gərərək fədakarlıq, işgüzarlıq, mübarizlik, əyilməz iradə, dəmir məntiq, özünəinam və siyasi uzaqgörənlik kimi fövqəl keyfiyyətlərdən məharətlə bəhrələnən Heydər Əliyev xalqımızı vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtarmış, müasir tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olmuşdur. Ümummilli Liderin siyasi müdrikliyi, fenomen yaddaşı, iti məntiqi, gərgin siyasi vəziyyətlərdən ustalıqla çıxmaq bacarığı, mürəkkəb siyasi situasiyalarda qərar vermək qabiliyyəti, uzaqgörənliyi, intellektual gücü, sabaha analitik baxışı, sərt və həm də qayğıkeş rəhbərlik xüsusiyyəti, cəmiyyətin siyasi, iqtisadi və mənəvi tarazlığını saxlamaq səriştəsi, onun siyasi portretinin parlaq cizgiləri kimi təcəssüm olunmuşdur.

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışı ilə Azərbaycan dövlətçiliyi özünün yüksək zirvəsinə çatmışdır. Və hər şey həmin tarixdən - iyunun 15-dən başladı. Bu tarix bir neçə anlamda Azərbaycanın qurtuluşunun başlanğıcı oldu. Bu dahi insan ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi. Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki Ulu Öndər Heydər Əliyevin yaratdığı təməl prinsiplər düzgün yerinə yetirilmişdi. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrildi, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil etdi. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratdı, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəldi. Ulu Öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində qızıl səhifələr yazdı. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil oldu. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşdi.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi.

1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ilə ölkəmizdə sosial-iqtisadi yüksəlişin təməli atıldı. Dahi şəxsiyyətin ərsəyə gətirdiyi bu layihə müstəqil dövlətimizin qüdrətli inkişafının rəhni oldu. "Əsrin müqaviləsi" adı ilə indi bütün dünyada tanınmış bu müqavilənin imzalanması və onun gerçəkləşdirilməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və böyük siyasətçi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Hüquqi dövlət quruculuğunun əsasını təşkil edən 1995-ci il Konstitusiyası isə qanunçuluğun ən ali səviyyədə təmin edilməsinin əbədi nümunəsi oldu. Ölkəmiz demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişafı kimi seçdi. Ulu Öndərin birbaşa təşəbbüsü ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu sənəd müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixə yazıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar verdi.

Müstəqil dövlətçiliyin əsas istiqamətləri kimi irəli sürülən milli təhlükəsizlik və milli maraqların qorunması, ordunun gücləndirilməsi, ölkənin müdafiə potensialının inkişafı, xarici siyasət və beynəlxalq əlaqələrin gücləndirilməsi 1993-2003-cü illərdə Ümummilli Liderin Azərbaycan Respublikasının Prezidenti kimi çoxşaxəli fəaliyyətinin başlıca istiqamətlərini təşkil edirdi. Cəmiyyətin siyasi sisteminin inkişaf etdirilməsi, sosial-iqtisadi siyasət, sosial-mədəni və mənəvi inkişaf sahəsində fəaliyyətin əsas istiqamətləri Azərbaycanın müstəqilliyinin xilaskarı kimi dövlət rəhbərliyi missiyasını öz üzərinə götürmüş Ulu Öndərin daxili siyasətdə əsaslandığı sabit və uğurla reallaşdırılan taleyüklü siyasi vəzifələr idi.

Heydər Əliyevin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamını özünə qaytardı. Sabitlik və əmin-amanlıq yarandı. Ölkədə sabitlik yaratmaqla Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi: *"Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır".*

Konkret ifadə etsək, XX əsrin 90-cı illərinin ortalarından başlayaraq, Ulu Öndərin rəhbərliyi altında aparılmış siyasi, sosial və iqtisadi islahatlar nəticəsində müstəqil Azərbaycan dövlətçiliyinin əsası və onun gələcək inkişafı üçün möhkəm təməllər üzərində qurulmuş baza yaradıldı. Məhz bu əsasda Azərbaycan daxili sosial-siyasi sabitliyə nail olub və daimi islahatlarla təkmilləşdirilən və cəmiyyətin maraqlarına cavab verən siyasi sistemə, dövlət-vətəndaş münasibətlərində harmoniyaya, davamlı iqtisadi inkişafa nail olan, dünya dövlətləri arasında özünə layiqli yer tutan, regionda lider olan bir ölkəyə çevrildi.

Beləliklə, sarsılmaz əqidəyə, möhkəm iradəyə malik, qətiyyətli, yenilməz və müdrik bir insan olan Heydər Əliyevin zəngin həyatını, siyasi irsini və bu kimi faktorları araşdırdıqca, bizlər bir daha müəyyən edirik ki, onun Azərbaycan üçün atdığı hər bir tarixi addım əvəzedilməz bir nümunədir. Çünki Heydər Əliyev dühası rəhbərlik etdiyi dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarıbdır.

Uzaqgörənliyi və müdrikliyi ilə xalqı, vətəni və dövləti üçün çalışan, bu yolda əməyini əsirgəməyən dahi şəxsiyyət Heydər Əliyev istər Azərbaycanın, istərsə də dünyanın siyasi mühitinə liderlik simvolu kimi həkk olundu.

Ulu Öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli inkişaf strategiyası bu gün onun layiqli varisi - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. Mütərəqqi idarəçilik prinsipləri ilə cəmiyyətdə böyük nüfuz sahibinə çevrilmiş İlham Əliyev dövlət başçısı kimi məsuliyyətli və şərəfli vəzifəni uğurla icra edir. Ölkə rəhbəri İlham Əliyev bu gün Ulu Öndər Heydər Əliyevin dövlətçilik və idarəçilik iş üslubunu dərindən mənimsəmiş siyasi lider, çağdaş dünyanın reallıqlarını zəngin siyasi təfəkkür səviyyəsində analitik təhliletmə bacarığına yiyələnmiş praqmatik siyasətçi, bacarıqlı diplomat, Heydər Əliyev kimi fenomenal, dahi şəxsiyyətin qan yaddaşının, genetik keyfiyyətlərinin layiqli daşıyıcısıdır.

Ötən 16 il dövlət başçısının verdiyi bütün vədlərin əməli fəaliyyətə və praqmatizmə söykəndiyini, respublikanın gerçək potensialı ilə uzlaşdığını tamamilə təsdiqləmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin əzmkarlıqla həyata keçirdiyi çoxşaxəli islahatlar kursu respublika iqtisadiyyatında böyük uğurlara yol açmış, hər bir vətəndaşın həyatında irəliləyişlərə səbəb olmuşdur. Heydər Əliyev ideyalarının və Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan tək regionda deyil, dünyada sayılıb-seçilən ölkədir.

Ulu Öndər Heydər Əliyev cismən aramızda olmasa da, ölkəmizi işıqlı sabahlara aparan bəşəri ideyaları ilə xalqımızın qəlbində yaşayır. İstər Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət, istər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın gördüyü işlər, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti Ulu Öndərin ideyalarının həyata vəsiqə qazanmasıdır.

Prezident İlham Əliyevin inkişaf konsepsiyası Heydər Əliyev Fondunun layihələri ilə daha da dolğunlaşmış, ölkəmizin dünyada təbliğinə geniş imkanlar açmışdır. Bu siyasətin həyata keçirilməsinə Mehriban xanım Əliyeva dəyərli töhfələr verir. Mehriban xanımın təşəbbüs və təklifləri müxtəlif sivilizasiya platformalarının qovuşuğunda yerləşən Azərbaycanın sosial-humanitar və mədəni modernləşməsinin hərəkətverici amilinə çevrilibdir. Mehriban xanım Əliyevanın Azərbaycanın müstəqil dövlətçiliyi, millətin sosial-mədəni inkişafı, milli dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi, ölkəmizin dünyada yüksək və qədim mədəniyyətə, müasir demokratik və ədalətli idarəetmə metoduna malik müstəqil dövlət kimi tanınmasında böyük xidmətləri vardır.

Bütün bunlar Mehriban xanım Əliyevanın bir insan, şəxsiyyət və dövlət xadimi kimi necə yüksək keyfiyyətlərə malik olduğunun parlaq təzahürüdür.

Bu gün Azərbaycanın dinamik sosial-iqtisadi inkişafı, ölkəmizin dünya birliyində öz yerini daha da möhkəmləndirməsi məhz Heydər Əliyev ideyalarının yaşamasının, Ümummilli Liderin siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir.

Böyük sürətlə yeniləşən Bakı şəhəri, xüsusi templə inkişaf edən Azərbaycan iqtisadiyyatı, həyata keçirilən möhtəşəm layihələr - Bakı-Tbilisi-Ceyhan neft boru, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, Böyük İpək yolu, hər gün müasirləşən Azərbaycan cəmiyyəti məhz Heydər Əliyev siyasi kursunun yaradıcı şəkildə, ardıcıllıqla davam etdirilməsinin real bəhrələri, sanballı töhfələridir.

Heydər Əliyev siyasətinə sədaqət nəticəsində müstəqil Azərbaycan bu gün yeni inkişaf və tərəqqi dövrünü yaşayır, Heydər Əliyev ideyaları yaşayır, qalib gəlir. Müstəqil Azərbaycan möhtərəm Prezident İlham Əliyevin liderliyi altında sürətlə beynəlxalq birliyə sıx şəkildə inteqrasiya olunur və onun nüfuzlu üzvlərindən birinə çevrilir. Bu gün müasir Azərbaycan Ulu Öndərin əsasını qoyduğu təməl üzərində davamlı inkişaf edir. Azərbaycan bu gün heç bir alternativi olmayan Heydər Əliyev yolu ilə inamla irəliləməkdədir. Hər bir uğurumuz, nailiyyətimiz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın dünəni, bu günü və gələcəyi kimi dəyərləndirilən Heydər Əliyev ideyaları dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizə qarşıdakı illər üçün daha möhtəşəm uğurlar vəd edir.

**Heydər Əliyev isə yaddaşların fövqündəki əməllərdə olduğu üçün müasir Azərbaycanla eyniləşdirilir. Çünki Azərbaycanı onsuz təsəvvür etmək mümkün deyil. Bütün varlığı ilə Vətənə və xalqa bağlı olan böyük şəxsiyyət və dövlət xadimi Heydər Əliyev öz həyatını, zəngin dövlətçilik təcrübəsini Azərbaycanın xoşbəxt gələcəyinə, onun inkişaf etmiş sivil dövlətlər səviyyəsinə yüksəlməsinə həsr etmişdi. Biz bu gün onun yaratdığı fundamental təməl üzərində ucalır, dünyanın inkişaf etmiş ölkələri sırasına çıxırıq. Azərbaycan var olduqca qələbələr davam edəcək, çünki bu torpaqda Onun ruhu var…**

**Asif ƏSGƏROV,**
***Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü***

# Milli Məclisin deputatı Yevda Abramovun Qubada dəfn mərasimi keçirilib

Dekabrın 8-də Qubada Azərbaycan Respublikası Milli Məclisinin deputatı, parlamentin İnsan hüquqları komitəsinin sədr müavini kimi fəaliyyət göstərmiş Yevda Abramovla vida mərasimi keçirilib.





AZƏRTAC xəbər verir ki, Bəşir Səfəroğlu adına Quba Mədəniyyət Mərkəzində keçirilən vida mərasimində dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm və mədəniyyət xadimləri, ziyalılar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Vida mərasimində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Yevda Abramovun ailəsinə ünvanladığı başsağlığı məktubu oxunub.

Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini-icra katibi, Baş Nazirin müavini Əli Əhmədov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Milli Məclisin deputatı Vahid Əhmədov, Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının sədri Melih Yevdayev, Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev mərasimdə çıxış edərək Yevda Abramovun həyat və fəaliyyəti haqqında danışıblar.



Bildirilib ki, milliyyətcə yəhudi olan Yevda Sasunoviç Abramov 1948-ci il iyunun 12-də Quba rayonundakı Qırmızı qəsəbədə anadan olub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsini bitirdikdən sonra pedaqoji fəaliyyətlə məşğul olub. Yeni Azərbaycan Partiyasının üzvü olan Yevda Abramov 53 saylı Quba-Qusar seçki dairəsindən 3-cü, 4-cü və 5-ci çağırış Milli Məclisin deputatı seçilib. Azərbaycan-Argentina, Azərbaycan-Kuba və Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupların üzvü, Azərbaycan-İsrail parlamentlərarası işçi qrupunun rəhbəri kimi fəaliyyət göstərib.

2018-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev ölkənin ictimai-siyasi həyatında fəal iştirakına görə Yevda Abramovu “Şöhrət” ordeni ilə təltif edib.

Qeyd edək ki, Yevda Abramov dekabr ayının 6-da 71 yaşında vəfat edib.

Vida mərasimindən sonra mərhumun cənazəsi doğulduğu Qırmızı qəsəbədə yerləşən qəbiristanlıqda torpağa tapşırılıb.

# Dərbənddə görkəmli dövlət xadimi, artilleriya general-leytenantı Hüseyn Rəsulbəyovun abidəsi açılıb

Dekabrın 9-da Rusiya Federasiyasının Dağıstan Respublikasının Dərbənd şəhərində görkəmli dövlət xadimi, artilleriya general-leytenantı, sovet dövründə uzun illər Azərbaycanın Rabitə naziri vəzifəsində çalışmış Hüseyn Rəsulbəyovun büstü açılıb.





Açılış mərasimində Rusiya Federasiyasının Dağıstan Respublikasının və Azərbaycan Respublikasının rəsmi şəxsləri, Quba, Qusar və Xaçmaz rayonlarının icra hakimiyyətlərinin rəhbərləri, Dərbənd şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, abidənin qoyulduğu ərazi general-leytenant Hüseyn Rəsulbəyovun adını daşıyan küçə ilə 345-ci Dağıstan Atıcı Diviziyası küçəsinin kəsişməsində yerləşir.

Mərasimdə büstün üzərindəki örtük tədbir iştirakçılarının alqış sədaları altında götürülüb.



Dərbənd şəhər dairəsinin rəhbəri Xızrı Abakarov mərasim iştirakçılarını salamlayaraq, xalqlarımız arasındakı möhkəm dostluq əlaqələrindən danışıb.

Dağıstan Xalq Məclisinin sədri Xızrı Şıxsəidov abidənin açılışını Dağıstan üçün unudulmaz hadisə adlandırıb: “Bu gün biz qədim Dərbənddə Rusiya və Azərbaycanın şərəfli oğlu, general-leytenant Hüseyn Rəsulbəyovun abidəsini açırıq. Biz tarixdə parlaq iz qoymuş Hüseyn Rəsulbəyovla fəxr edirik. O, Böyük Vətən müharibəsi cəbhələrində şərəfli döyüş yolu keçib. Bir çox döyüş əməliyyatlarının iştirakçısı olan Hüseyn Rəsulbəyov cəsarətli və qətiyyətli zabit idi. Xalqlarımız görkəmli dövlət və hərbi xadimin xidmətlərini bu gün də ehtiramla xatırlayırlar”.

Sonra çıxış edən Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatının sədri Şəmsəddin Xanbabayev, Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclis Sədrinin müavini Valeh Ələsgərov, diyarşünas alim, Dərbənd şəhərinin fəxri vətəndaşı Hüseynbala Hüseynov və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətinin rəisi, akademik Cəmil Əliyev Dağıstan və Azərbaycan xalqlarının qədim tarixə malik dostluq əlaqələrindən danışıb, Ümummilli Lider Heydər Əliyevin bu əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərini qeyd ediblər. Vurğulanıb ki, hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ölkələrimiz və xalqlarımız arasındakı dostluq münasibətlərinin inkişafına xüsusi önəm verirlər.

Abidənin açılışının Böyük Vətən müharibəsində qələbənin 75 illiyi ərəfəsinə təsadüf etdiyini vurğulayan Cəmil Əliyev Rusiya və Azərbaycan prezidentləri Vladimir Putin və İlham Əliyevə müharibə iştirakçılarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində səylərinə görə mərasim iştirakçıları adından minnətdarlığını bildirib. “Bu gün yalnız bizim ailəmiz üçün deyil, iki qardaş xalqın həyatında əlamətdar hadisə baş verir. Əziz dərbəndlilər, Hüseyn Rəsulbəyovun xatirəsinə göstərdiyiniz yüksək ehtirama görə hamınıza minnətdaram” deyə akademik Cəmil Əliyev qeyd edib.

Açılış mərasimində hava hücumundan müdafiə dairəsinin zenit-artilleriya qoşunlarının komandanı vəzifəsinədək yüksəlmiş azərbaycanlı general-leytenant Hüseyn Rəsulbəyovun tarixi xidmətləri xatırlanıb, həyat və fəaliyyəti barədə ətraflı söhbət açılıb.

Bildirilib ki, peşəkar hərbçi kadrların yetişdirilməsində mühüm xidmətləri olan Hüseyn Rəsulbəyovun şərəfli ömür yolu zabit və əsgərlər üçün gözəl nümunədir. Bu baxımdan onun həyat yolu, fəaliyyəti dərindən öyrənilməli, gənclər arasında geniş təbliğ olunmalıdır.

Azərbaycanın hərb tarixində özünəməxsus yeri olan Hüseyn Rəsulbəyov 1917-ci ildə Dərbənddə doğulub. 1932-ci ildə ovaxtkı Orconikidze şəhərində Politexnik Texnikumuna daxil olan H.Rəsulbəyov sonradan təhsilini Leninqrad Elektrotexnika İnstitutunun Siqnalizasiya və rabitə mühəndisi fakültəsində davam etdirib. 1941-ci ildə isə F.Dzerjinski adına Qızıl Ordu Artilleriya Akademiyasını bitirən ilk azərbaycanlı olub. Həmin il Hüseyn Rəsulbəyov Odessada Primorsk Qoşunlar Qrupuna göndərilib və hava hücumundan müdafiə qoşunlarının 15-ci briqadasının mühəndisi vəzifəsində xidmət göstərib. Böyük Vətən müharibəsi zamanı hava hücumundan müdafiə qoşunlarının tərkibindəki qərargahlarda müxtəlif vəzifələrdə çalışıb, Odessa, Kerç, Sevastopol və Şimali Qafqazın müdafiəsində iştirak edib. Müharibənin sonlarında isə Zaqafqaziya cəbhəsinin 99-cu hava hücumundan müdafiə qoşunları diviziyasının artilleriya rəisi olub.

Müharibədən sonra uzun illər Bakı hava hücumundan müdafiə dairəsi qoşunlarında məsul hərbi vəzifələrdə çalışan H.Rəsulbəyov mühəndis-texniki xidməti general-mayoru rütbəsi alıb, 1966-1975-ci illərdə Bakı hava hücumundan müdafiə dairəsi qoşunlarının zenit-artilleriya qoşunları komandanı vəzifəsində xidmət edib. 1968-ci ildə nümunəvi xidmətlərinə görə ona artilleriya general-leytenantı hərbi rütbəsi verilib. H.Rəsulbəyov sovet dövründə hava hücumundan müdafiə dairəsinin zenit-artilleriya qoşunlarının komandanı vəzifəsinə yüksəlmiş yeganə azərbaycanlıdır.

Diqqətə çatdırılıb ki, 1975-ci ildə Azərbaycanın Rabitə naziri vəzifəsinə təyin edilən Hüseyn Rəsulbəyov bu sahədə də böyük uğurlara imza atıb. Onun Azərbaycanın rabitə xidmətinin inkişafında, respublikamızın şəhər və kəndlərinin telefonlaşdırılmasında, radio-televiziyanın maddi-texniki bazasının möhkəmlənməsində xüsusi xidmətləri olub.

Həmin dövrdə Azərbaycanda Baş Poçtamt, Rabitə Evi, rabitə qovşaqları və digər mühüm obyektlər inşa edilib. Artıq iyirmi ildən çoxdur ki, Azərbaycan Televiziyası və digər televiziyalar öz verilişlərini Dağüstü parkın yaxınlığında ucaldılmış müasir teleqüllə vasitəsilə bütün dünyaya yayır. Bu teleqüllənin ucaldılmasında Hüseyn Rəsulbəyovun mühüm xidmətləri var.

Görkəmli dövlət və hərbi xadim 1984-cü ildə dünyasını dəyişib və Fəxri xiyabanda dəfn edilib.

Hüseyn Rəsulbəyovun xidmətləri yüksək qiymətləndirilib, o, müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan SSR Ali Sovetinin bir neçə çağırış deputatı olan H.Rəsulbəyovun Bakıda yaşadığı evin qarşısına xatirə lövhəsi vurulub. Bundan başqa, Bakı Rabitə Texnikumu onun adını daşıyır. Dərbənd şəhərində doğulduğu küçəyə və təhsil aldığı məktəbə də xatirə lövhəsi vurulub. Dərbəndin prospektlərindən biri general-leytenant Hüseyn Rəsulbəyovun adını daşıyır. Qusar və Xaçmaz şəhərlərində də onun adını daşıyan küçələr var.

# Bakıda “Dini maarifləndirmə işinin təşkilində dini ədəbiyyatın yeri və rolu” mövzusunda konfrans keçirilib

Dekabrın 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə “Dini maarifləndirmə işinin təşkilində dini ədəbiyyatın yeri və rolu” mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfrans çərçivəsində DQİDK, Qafqaz Müsəlmanları İdarəsi, dövlət komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan Bibliya Cəmiyyəti tərəfindən nəşr edilən kitablar sərgilənib. Sərgidə milli-mənəvi dəyərlərimizin qorunması, xalqımızın tolerant və multikultural ideyalarının və ənənəvi dini dəyərlərinin təbliği, dövlət-din münasibətlərinin fəlsəfi-siyasi, hüquqi əsasları və sosial-analitik təhlili, həmçinin dini maarifləndirmə işinin təşkili məqsədilə bir sıra kitab, kitabça və digər məlumat materialları nümayiş olunub.

Konfransda DQİD və Qafqaz Müsəlmanları İdarəsinin rəhbərliyi, Bakıdakı mərkəzləşmiş kitabxanaların və nəşriyyatların direktorları, din xadimləri, media və ictimaiyyət nümayəndələri iştirak ediblər. Tədbir iştirakçıları əvvəlcə sərgi ilə tanış olublar.

DQİDK sədri Mübariz Qurbanlı bildirib ki, son illərdə ölkədə ümumi sayı təqribən 550 mindən çox 212 adda dini ədəbiyyat nəşr edilib. Onlardan 14-ü dövlətin din siyasətinə, 34-ü multikulturalizm və tolerantlığa,114-ü milli-mənəvi dəyərlərimizə həsr olunub. Əsas istiqamətlərdən biri olan dini radikalizmlə mübarizə mövzusunda isə 50 adda ədəbiyyat nəşr olunub. M.Qurbanlı vurğulayıb ki, dövlət komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən 2018-2019-cu illərdə 43 adda kitab nəşr olunub ki, gələn ilin əvvələrinə qədər bu sayın 94-ə çatdırılması nəzərdə tutulub. O bildirib ki, bu kitabların nəşr edilməsinin, yayılmasının məqsədi mənəvi dəyərlərimizin, tolerantlıq və multikultural ənənələrimizin, dövlət başçısının həyata keçirdiyi dövlət-din münasibətlərinə aid siyasətin ictimai rəyə təqdim edilməsidir.

QMİ sədrinin birinci müavini, müfti Hacı Salman Musayev təşkil edilən bu qəbildən konfransların əhəmiyyətini vurğulayaraq bildirib ki, dövlət komitəsinin nəşr etdiyi dini ədəbiyyatın Azərbaycan dili ilə yanaşı, xarici dillərdə də çap olunması və yayılması ölkəmizə xas dini mədəniyyətin daha geniş oxucu kütlələrinə çatdırılmasına rəvac verir.

Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov təşkil edilən kitab sərgisinə tədbir iştirakçıları tərəfindən böyük maraq göstərildiyini diqqətə çatdırıb. O qeyd edib ki, rəhbərlik etdiyi qurumun iştirak etdiyi beynəlxalq sərgilərdə Azərbaycandakı dövlət-din münasibətlərinə, milli-mənəvi dəyərlərə, dini etiqad azadlığına həsr olunmuş kitablar nümayiş etdirilir, bu da digər ölkələrin nümayəndələri tərəfindən böyük maraqla qarşılanır.

DQİDK tərəfindən nümayiş etdirilən ədəbiyyatın əhəmiyyətli məzmun xəttinə malik olması barədə danışan Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasının müdiri Elçin Əhmədov bildirib ki, dinin hüquqi, pedaqoji, sosioloji, fəlsəfi mahiyyətinin əks olunduğu kitablar istər dini maarifləndirmə, istərsə də elmi tədqiqat işlərində vacib mənbə kimi istifadə oluna bilər.

## Elm xadimləri

# Görkəmli iqtisadçı alim və pedaqoq

İnsan həyatının mənasını gözəl işlərə həsr etməkdə görür, özündən sonra ölməz, xatirələrə dönən, nurlu - işıqlı əbədiyyət yaradır. Beləcə, insan öz yaratdıqları ilə əbədi yaşayır. Belə ziya sahiblərindən biri Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Aqil Əlirza oğlu Əliyev olmuşdur.



Vətəninə və xalqına ləyaqət və şərəflə xidmət etmiş görkəmli iqtisadçı alim və pedaqoqlarımızdan olan Aqil Əlirza oğlu Əliyev 1926-cı il dekabrın 10-da qədim Naxçıvan diyarında anadan olmuşdur. Atası - Əlirza Cəfər oğlu Əliyev 1943-cü ildə Naxçıvan şəhərində vəfat etmişdir. Atasının vəfatından sonra ailənin bütün ağırlığı yeniyetmə Aqil Əliyevin üzərinə düşmüşdür. Müharibə illərində arxa cəbhədə çalışaraq çətinliklə də olsa, ailə üzvlərinə kömək edirdi. Anası İzzət xanım sadə bir evdar qadın kimi öz övladlarının təhsilli olmalarına çox üstünlük verirdi. Namaz qılan və oruc tutan ananın böyük arzusu övladlarını təhsilli görmək idi. O, Məhəmməd peyğəmbərin (ə.) elmi beşikdən qəbrədək öyrənməyi insanlara tövsiyə edən dəyərli sözlərini övladlarına həmişə xatırladardı. Ananın Həzrət Əlinin “Elm zənginlər üçün bəzək, kasıblar üçün zənginlikdir” ifadələrini uşaqlara tez-tez söylədiyi bu cür və digər misallar öz bəhrəsini verməyə bilməzdi. Odur ki, başqa övladları kimi Aqil müəllim də təhsil almağa böyük səylə çalışırdı. O, 1946-cı ildə Bakı Dövlət Universitetinə daxil olmuş və 1951-ci ildə oranı bitirmişdir. 1953-cü ilə qədər Azərbaycan EA-nın Tarix İnstitutunda elmi işçi vəzifəsində çalışmışdır.

İqtisad elminə və pedaqoji fəaliyyətə böyük marağı olduğundan 1953-cü ildə Azərbaycan Tibb Universitetinin Siyasi iqtisad kafedrasında əmək fəaliyyətinə başlamışdır. Ömrünün sonuna qədər, yəni 53 il müddətində həmin universitetin Siyasi iqtisad kafedrasında əvvəlcə müəllim, dosent, professor və kafedra müdiri vəzifələrində çalışmışdır.

Aqil Əliyev 1970-ci ildə namizədlik dissertasiyası müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. 1973-cü ildə dosent, 1979-cu ildə professor vəzifəsinə seçilmişdir. A.Əliyev 1982-ci ildə “Şəxsi istehlakın iqtisadi problemləri” mövzusunda doktorluq dissertasiyası müdafiə edib, iqtisad elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

Bütün zəka sahibləri həmişə özlərinə böyük təbib və filosof Əbu Əli İbn Sinanın “Mən çox istərdim ki, biləm mən kiməm və bu dünyada nə axtarıram” sualını vermişlər. Bu sualın cavabı geniş dünyagörüşünə sahib olan şəxsiyyətlərin daxili aləmlərində, mənəviyyatlarında, yaradıcılıqlarında öz təcəssümünü tapmışdır. Aqil Əlirza oğlu Əliyev belə zəka sahiblərindən idi. Aramızda olmadığı üçün onun haqqında yazmaq, sözsüz ki, çətindir. Bu çətinlik onun cismani yoxluğu ilə əlaqədardır, lakin bu böyük insanın yaratdıqları, iqtisad elmi sahəsində zəngin fikirləri ilə bağlı mülahizə və ideyaları indi də çox dəyərli və əhəmiyyətlidir. Həmin dəyərləri bütün təfərrüatı ilə qiymətləndirmək heç də asan deyil.

Kamyu yazır ki, “ya zamanla birgə yaşayıb ölərsən, ya da ülvi ideallar uğrunda yaşayıb zaman sərhədini keçərsən”. İnsan zamanın rejissoru olduqda onun sərhədini keçir, cəmiyyətdə özünü təsdiqləyir və sıradan bir şəxsiyyət və yaxud ziyalı olmur. Aqil müəllim zaman sərhədini keçən, həmişə xatırlanan görkəmli iqtisadçı alim-pedaqoq olmuşdur.

Aqil müəllim barəsində keçmiş zamanda danışmağa adamın dili gəlmir, ona görə ki, onun bütün əməlləri və fəaliyyəti xeyirxah niyyətli idi. Müdrik və xeyirxah insanlar mənən həmişə qəlblərdə yaşayır, onların həyatda yoxluqları isə son dərəcədə ağrı və təəssüf hissi doğurub. Bu cür insanlar millətin sərvəti hesab edilərək xalq tərəfindən əbədiyaşarlıq statusu qazanıblar. Onlar etdikləri yaxşılıqlarda, başlarını sığalladıqları yetimlərin dualarında, qollarından tutub qaldırdıqları kimsəsizlərin ruhlarında yaşayıblar, yaşayırlar... Aqil müəllim bax beləcə ömür sürmüş alim-ziyalı idi. O qədər alicənab, təvazökar, müdrik insan idi ki, özünü həyatda həddən artıq sadə aparırdı. Uşağı da, böyüyü də, tanıdığını da, tanımadığını da xoş üzlə qarşılayırdı. Bacardığı və imkanı çatdığı qədər təmənnasız kömək göstərirdi.

Tarixdə nə baş verirsə, onu insan edir. K.Yaspers yazırdı: “Biz insanı özünün yaratdığı nəhəng əməllərdə görərkən tarixin sərhəddini keçirik; bu əməllərlə insan varlığı tapıb başa düşür və onu başqaları üçün də əlçatan edir”. Akademik A.Əliyevin elmi və pedaqoji fəaliyyətinin özəyini məhz bu ali məqam əhatə edirdi.

Aqil müəllim sözün əsl mənasında ziyalı idi. Onun ziyalılığı xalqımızın əsrlərdən bəri yolyoldaşı olan mənəviyyatımızı, ədəb-ərkanımızı qoruyub saxlamaqda, onu intellektin işığında həmişə zirvədə tutmaqdır. 190-dan artıq elmi əsərin, o cümlədən 32 monoqrafiya və kitabın müəllifi olmuş, çoxsaylı elmlər namizədi və elmlər doktoru yetişməsində əvəzsiz xidmətlər göstərmişdir.

O, Azərbaycanda ilk dəfə olaraq “Şəxsi istehlakın iqtisadiyyatı və problemləri”, “Aqrar iqtisadiyyatın aktual problemləri”, “Kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi problemləri” və digər sanballı monoqrafiyaların müəllifidir.

Aqil müəllimin qoyub getdiyi elmi-pedaqoji irsini bir məqalədə əhatə etmək çətindir. Lakin o, elmi ideyaları bilavasitə praktikaya tətbiq edən bir alim kimi xalqımızın tarixində özünəməxsus yer tutur. Ulu Öndər Heydər Əliyevin sözləri ilə desək: “Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur”. Alimlər arasında belə zəka sahiblərindən biri məhz Aqil müəllim olmuşdur.

O, zəngin elmi-pedaqoji təcrübəsi, təfəkkürün məntiqliyi, natiqliyi, əməldə fəzilətliyi və xeyirxahlığı, fəaliyyətdə mübarizliyi və tükənməz səbri sayəsində insanlıq zirvəsini fəth etmişdir.

Onun haqqında o qədər maraqlı faktlar var ki, bəzən bilmirsən hansını deyəsən, hansını yazasan. Xalqımızın ən gözəl xüsusiyyətləri olan insana yaxşılıq etmək, qayğı göstərmək Aqil müəllimin əqidə manifesti, həyat devizi idi. O, insanlara qayğı göstərirdi, onların işinə yarayırdı. Bu, onun həyatını mənalandırır, dəyərini, qiymətini yüksəldirdi. O, sözün əsl mənasında bir çox insanlar üçün ümid yeri idi. N.Tusinin belə bir fikrini yada salaq: “Başqasına etdiyin yaxşılığı unuda bilərsən, ancaq sənə edilən yaxşılığı unutmamalısan”. Bu fikir həmişə mənim qəlbimdə yaşayır. Onun insanlara səmimi, xeyirxah və qayğıkeş münasibəti bizim üçün örnəkdir.

Aqil müəllim həddən artıq tələbkar idi, biganəliyi xoşlamırdı. Elinin, obasının qədrini bilən idi, xalqa xidməti həyatının məna və məqsədi hesab edirdi. Aqil müəllim saf əqidəsi və məsləyi olan ziyalı idi. Onun əqidəsi humanizmə, həqiqətə, ədalətə söykənirdi. Müdrikliyi, zəkası, dünyanı dərketmə qabiliyyəti ilə başqalarından fərqlənən vətəndaş, alim-ziyalı idi. Antik dövr filosofu Epikürün şagirdləri onları müəlliminə bağlayan nədir sualına belə cavab vermişdilər: “Bizi Epikürə bağlayan onun həmişə özü-özünə bərabər olmasıdır”. Bu epitet tamamilə Aqil müəllimə də aiddir: o həmişə özü-özünə bərabər idi, təkrarsız idi!

Aqil müəllim insanlığı, şəxsiyyəti, səmimiyyəti uca tutub qiymətləndirən, onu qorumağı bacaran nadir bir şəxsiyyət idi. Adamlar arasında özünün ən ülvi keyfiyyətləri ilə seçilən, sayılan idi. Təbiətən sakit, mülayim, həddən artıq nəvazişli və qayğıkeş idi.

Aqil Əliyevin elmi-pedaqoji fəaliyyəti, xalq və vətən qarşısında xidmətləri dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. O, 1982-ci ildə Əməkdar elm xadimi fəxri adına, “Şöhrət” və “Qırmızı Əmək Bayrağı” ordenlərinə, çoxlu sayda medal, fəxri fərman və təşəkkürnamələrə layiq görülmüşdür.

Onun əmək fəaliyyətində də çox gərgin illər olmuşdur. Azərbaycan KP MK-nın ozamankı rəhbərliyin göstərişi ilə heç bir əsas olmadan 1988-ci ildə işdən uzaqlaşdırılaraq təqaüdə göndərilmişdi.

Lakin çox keçmədən bu addımın səhv olduğu dərk edilmiş və görkəmli alim 1992-ci ildən yenidən elmi-pedaqoji fəaliyyətə qaytarılmışdır. 1998-ci ildən ömrünün sonuna qədər ATU-da “İqtisadiyyat və hüququn əsasları” kafedrasının müdiri vəzifəsində çalışmışdır.

1996-cı ildə A.Əliyev Beynəlxalq Enerji İnformasiya Elmlər Akademiyasının Azərbaycan bölməsinin həqiqi üzvü - akademik seçilmiş, 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2003-cü ildə beynəlxalq menecment Akademiyasının həqiqi üzvü, 2006-cı ilin yanvar ayında Beynəlxalq iqtisadçılar ittifaqının üzvü seçilmişdir.

Professor elmi-pedaqoji institutlar və universitetlərin tələbələri üçün “İqtisadi nəzəriyyə” kursu üzrə yazılmış 2 cildlik dərsliyin müəlliflərindən biri olmuşdur.

A.Əliyev geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş müxtəlif jurnal və qəzetlərdə yüzlərlə elmi-kütləvi, publisistik məqalələrin müəllifi olmuşdur.

O, Azərbaycanda ilk dəfə olaraq “Kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi problemləri”, “Səhiyyədə iqtisadiyyat, planlaşdırma, idarəetmə, maliyyələşdirmə və əməyin elmi təşkili”, “ASK-nın aqrar bölməsində elmi-texniki tərəqqini sürətləndirmə problemləri” və sair sanballı monoqrafiyalar yazmışdır.

Təkcə bazar iqtisadiyyatına keçid şəraitində A.Əliyevin 80 adda elmi əsəri çap olunmuşdur. Onlardan “Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu”, “İpək yolunun bərpası bəşəriyyətin tərəqqi yoludur”, “Azərbaycanda bazar münasibətləri şəraitində əhalinin sosial problemləri”, “Səhiyyənin iqtisadiyyatı”, “Azərbaycanda əhalinin səviyyəsinin yüksəldilməsinin aktual problemləri”, “Naxçıvan Muxtar Respublikası: nailiyyətlər, problemlər” I və II cild, “Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti”, “Bələdiyyələr. Metodik kömək”. “Dünya iqtisadiyyatı: müasir dövrün problemləri”, “Müstəqil Azərbaycan iqtisadiyyatının aktual problemləri” və sair sanballı kitabları çap olunmuşdur.

Aqil müəllimin “İpək yolunun bərpası bəşəriyyətin tərəqqi yoludur” əsəri müasir dövrdə əhəmiyyətli və aktualdır. Müəllif əsərdə Böyük İpək yolunun e.ə. II-I əsrlərdə inşa olunduğunu, Çinlə Mərkəzi və Ön Asiyanı birləşdirdiyini, 31 ölkənin ərazisindən keçdiyini, 40 yaxın ölkənin iqtisadiyyatına xeyir gətirdiyini qeyd etmişdir. Tarixin müxtəlif dövrlərində başqa (su, dəniz) yollar fəaliyyət göstərsə də, hazırda qısa bir zamanda ticarət əlaqələri üçün bu yolun əhəmiyyəti çox böyükdür. Bu yolun əhəmiyyəti barəsində Ulu Öndər Heydər Əliyev demişdir: “Böyük İpək yolu keçmişdən başlasa da gələcəyə doğru gedən yoldur. Mən inanıram ki, əgər biz bu yolla birlikdə getsək, o, xalqlarımızı firavanlığa və tərəqqiyə gətirib çıxaracaqdır”.

A.Əliyevin tarix, mədəniyyət, etnoqrafiya elmləri haqqında dərin biliyi və zəkası ünsiyyətdə olduğu insanları və onu tanıyanları həmişə heyran edirdi.

Professor Aqil Əliyev zəhmətlə dolu həyat yolu keçmiş, ömrünü bütövlükdə xalqımızın və vətənimizin tərəqqisinə həsr etmişdir. O, ATU-nun və respublikamızın ictimai həyatında yaxından iştirak etmiş, humanistliyi, ədalətliliyi, prinsipiallığı ilə yaddaşlarda işıqlı xatirə qoymuşdur.

Bütün həyatı boyu saflıq və paklıq, əməksevərlilik və insansevərlilik, haqqa-ədalətə vurğunluq, namus və qeyrət yükünü mərdanəliklə öz çiynində daşımış Aqil müəllimin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

Cəlaləddin Rumi deyib ki, öləndən sonra məni torpaqda yox, insanların qəlblərində axtarın. Bu sözləri dostlarının, həmkarlarının, tələbələrinin, bütün yaxınlarının ürəyində nəcibliyi, kamilliyi, böyüklüyü ilə əbədi yer tutmuş professor Aqil Əliyevə də aid etmək olar.

***Qoşqar ƏLİYEV,***
***ATU-nun İctimai fənlər kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor***

# Yevlaxda Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi anılıb

Yevlax şəhərinin mərkəzindəki Heydər Əliyev Sarayında şəhər icra hakimiyyətinin başçısı Anar Tağıyev, idarə, təşkilat, təhsil, səhiyyə müəssisələrinin, ictimaiyyətin, ağsaqqallar və gənclərin nümayəndələrinin iştirakı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.





Tədbirin aparıcısı, Şuşa Dövlət Teatrının aktyoru, Əməkdar artist Nazir Rüstəmov qeyd etdi ki, düz 16 il əvvəl dekabr ayında müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyev əbədiyyətə qovuşdu. Çox illər keçəcək, lakin çiçəklənən Azərbaycanın vətəndaşları dövlətçilik müdrikliyi və sarsılmaz mətinliyi sayəsində Azərbaycanın gələcəyini təmin etmiş bu dahi insanı unutmayacaqlar.

Əsası Heydər Əliyevin yorulmaz əməyi ilə qoyulmuş bugünkü dayanıqlı inkişaf ölkə rəhbəri İlham Əliyevin uğurlu siyasəti sayəsində davam edir. XX əsrin 90-cı illərində Azərbaycanın dəf etdiyi çətin, lakin şərəfli yol yalnız Heydər Əliyevin fəaliyyəti sayəsində tarixi həqiqətə çevrildiyi kimi, XXI əsrin əvvəllərinin möhtəşəm uğurları isə Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin yeritdiyi siyasətin parlaq təzahürüdür.

Səhnədəki monitorda Ulu Öndər Heydər Əliyevin portreti canlandırıldı. Sonra dahi şəxsiyyətin həyatını və siyasi fəaliyyətini əks etdirən videogörüntülər fonunda Əməkdar artist Nərgiz Əliyevanın rəhbərlik etdiyi kamera orkestrinin müşayiəti ilə Əməkdar artist İlham Nəzərov, tanınmış artistlər Fatimə Cəfərova, Nigar Cəlilova, Süleyman Süleymanov, tarzən Arslan Növrəsli, Əməkdar artist Fəridə Məlikova (kamança) və Ceyla Seyidovanın (violin) ifasında Heydər Əliyevin çox sevdiyi mahnılar səsləndi. Anım gecəsi Əməkdar artist İlham Nəzərovun ifasında Müslüm Maqomayevin "Azərbaycan" mahnısı ilə sona çatdı.

***İsrafil KƏRİMOV,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# MSK-nın bələdiyyə seçkiləri ilə əlaqədar maarifləndirmə tədbirləri davam edir

Mərkəzi Seçki Komissiyasının (MSK) qarşıdan gələn bələdiyyə seçkiləri ilə əlaqədar maarifləndirmə proqramı çərçivəsində polisin xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsi mövzusunda sonuncu seminar-müşavirə dekabrın 9-da Bakı Şəhər Baş Polis İdarəsində keçirilib.

AZƏRTAC xəbər verir ki, seminar-müşavirədə Mərkəzi Seçki Komissiyasının, Daxili İşlər Nazirliyinin əməkdaşları, rayon polis idarələrinin nümayəndələri və dairə seçki komissiyalarının sədrləri iştirak ediblər. Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini, polis polkovniki Əziz Baqişev çıxış edərək bildirib ki, tədbirin keçirilməsində məqsəd seçki prosesində, eləcə də səsvermə günü polisin xidməti fəaliyyətini, polis orqanları ilə seçki komissiyalarının qarşılıqlı fəaliyyətini təkmilləşdirmək, bu istiqamətdə görülmüş işlərin səmərəliliyini daha da yüksəltməkdir. Diqqətə çatdırılıb ki, Azərbaycan polisi hər zaman olduğu kimi, seçkilər vaxtı da sabitliyin təmin olunmasında yaxından iştirak edəcək. Mərkəzi Seçki Komissiyasının üzvləri Qabil Orucov və Ramiz İbrahimov çıxışlarında bildiriblər ki, bu kimi tədbirlər ənənəvi olaraq keçirilir. Qeyd edilib ki, seçkilər zamanı dairə seçki komissiyaları polis orqanları ilə qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərəcək. Bu seçkilərin də sabitlik şəraitində keçirilməsi təmin ediləcək.

Sonda seminar-müşavirə iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Azərbaycanda multikulturalizm nümunəsi



Multikulturalizm eyni bir ölkədə yaşayan müxtəlif millətlərin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşünə xidmət edən siyasətdir. Multikulturalizm dedikdə çoxmədənilik və fərqli mədəniyyətlərin bir arada yaşadığı cəmiyyət başa düşülür. Bir siyasət kimi o, öz mahiyyəti baxımından tolerantlıqla da sıx bağlıdır. Belə ki, müxtəlif mədəniyyətlərin inteqrasiya olunmuş şəkildə yaşamasını qəbul edən tolerant cəmiyyətin başlıca xüsusiyyətlərindən biri hesab edilir. Tolerant cəmiyyətdə multikulturalizm mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsinə, xalqları birləşdirən mədəni dəyərlərin formalaşmasına səbəb olur ki, bu da insanları birləşdirir.

Müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multikulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Azərbaycan Respublikasında bu sahədə ortaya qoyulan mümunədir. Burada ölkənin milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər. Multikulturalizmdən imtina etmək yaxşı heç nə vəd etmir, çünki bu, bütün dünyada getdikcə artan anlaşılmazlığa, fobiyaya və qarşıdurmaya, milli və dini münaqişələrə aparıb çıxara bilər.

Müasir dövrdə multikulturalizm Azərbaycanda əhəmiyyətli rol oynayır. Tarixən Azərbaycan çoxmədəniyyətli bir dövlət olmuşdur. Keçmiş dövrlərdən bəri burada avarlar, talışlar, ləzgilər, udinlər və s. millətlər sülh və əmin-amanlıq içərisində yaşamışdılar.

Ölkəmizdə multikultural cəmiyyətin yaranıb inkişaf etməsində coğrafi faktorun rolu da böyük olmuşdur. Belə ki, Azərbaycanın əlverişli coğrafi ərazidə və müxtəlif milli mədəniyyətlərin qovşağında yerləşməsi bir sıra xalqların və milli azlıqların məskunlaşmasına təsir göstərmişdir. Azərbaycanın bu əlverişli coğrafi mövqeyi onun etnik mədəni müxtəlifliyə malik olan bir cəmiyyət kimi formalaşmasında da öz əhəmiyyətini ortaya qoymuşdur. Ancaq ölkədə multikulturalizmin inkişafı təkcə əlverişli coğrafi amildən asılı deyildir. Çünki dünyada elə ölkələr var ki, onlar da Azərbaycan kimi əlverişli coğrafi məkanda yerləşirlər. Lakin həmin ölkələrin bir çoxunda multikulturalizmin vəziyyəti Azərbaycandakından çox-çox aşağıdır. Səbəb isə Azərbaycanın multikulturalizmi dövlət siyasəti kimi qəbul etməsidir. Multikulturalizm respublikamızda dövlət siyasəti ilə yanaşı, həm də əhalinin həyat tərzidir. Azərbaycanda multikulturalizmin siyasi əsasları Konstitusiyamızın bəndlərində, qanunvericilik aktlarında, fərman və sərəncamlarda öz əksini tapmışdır.

Hər bir ölkənin sosial-iqtisadi tərəqqisi onun mədəni inkişafı ilə sıx bağlıdır. Dünyada qlobal maliyyə böhranının hökm sürdüyü dövrdə respublikada iqtisadiyyatın demək olar ki, bütün sahələrində irəliləyiş təmin olunur. Azərbaycan hazırda dünyanın qabaqcıl ölkələri sırasında öz yerini tutmaq üçün səylərini daha da gücləndirir. Bu gün respublikamız iqtisadi göstəricilərinə görə dünyanın qabaqcıl ölkələri sırasında öz layiqli yerini tutursa, bu həm də onun müxtəlif etno-mədəni qrupları özündə birləşdirməsi və qoruması siyasətindən də irəli gələn göstəricidir. Ölkəmizdə sosial iqtisadi inkişafın təmin edilməsində multikulturalizmin böyük rolu vardır.

Azərbaycanda multikulturalizmin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Onun hakimiyyəti dövründə ölkədə dinindən və milliyyətindən asılı olmayaraq bütün xalqlar rifah və firavanlıq içərisində yaşamışdır. Ulu Öndər respublikamızda multikulturalizm siyasətini uğurla həyata keçirmiş və ölkəmizi dünya miqyasında multikulturalizm ölkəsi kimi tanıtmışdır. Bu hazırda Prezident İlham Əliyev tərəfindən də inamla davam etdirilir. Ölkədə multikulturalizmin daha da inkişaf etdirilməsi məqsədilə dövlət başçısının 15 may 2014-cü il tarixli sərəncamı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Mərkəzin əsas vəzifələri Azərbaycan Respublikasında mədəni, dini müxtəlifliyin tolerant əsaslarının elmi təhlilini aparmaq və qorunub saxlanması yollarını müəyyənləşdirməkdən, multikultural həyatda müxtəlif bölgələrə aid mədəniyyətlərin bir-birinə təmas dərəcəsini öyrənmək və təşviq etməkdən, müxtəlif dinlərə mənsub gənc din xadimlərinin peşəkar dini, dünyəvi biliklərinin artırılması istiqamətində tədbirlər həyata keçirməkdən və multikulturalizm üzrə dünya mütəxəssislərinin, eyni zamanda keçmiş və müasir siyasi, ictimai, elm, mədəniyyət, incəsənət xadimlərinin şəxsi təcrübələrini təhlil etmək və yaymaqdan, eləcə də multikulturalizmin ölkənin sosial-iqtisadi inkişafına təsirini təhlil etməkdən ibarətdir.

Ölkəmizdə yaşayan müxtəlif millətlərin və etnik azlıqların bərabərhüquqlu olması, yəni onlara yerli əhali ilə müqayisədə fərq qoyulmaması multikulturalizm siyasətinin uğurla həyata keçirilməsinin əyani sübutudur. Hazırda Azərbaycanda ölkənin əsas və çoxluq təşkil edən əhalisi - azərbaycanlılarla yanaşı, bir sıra digər millət, xalq və etnik azlıqlar da yaşayır. Respublikamızda yaşayan millətlər əsasən ləzgilər, ruslar, talışlar, avarlar, türklər, tatarlar, gürcülər, yəhudilər və kürdlərdən ibarətdir.

Ölkədə multikulturalizmin sosial-iqtisadi inkişafa təsiri bundan ibarətdir ki, respublikada yaşayan müxtəlif millətlərin nümayəndələri yerli əhali kimi iqtisadiyyatın istənilən sahəsində müəssisə aça bilərlər. Onların iqtisadiyyatın müxtəlif sahələrinə investisiya yatıraraq həm mənfəət əldə etmək, həm də ölkənin iqtisadi inkişafına təsir göstərmək imkanı var. Bu gün Azərbaycanda fəaliyyət göstərən və ölkənin sosial iqtisadi inkişafında mühüm rol oynayan bir çox iri müəssisələr vardır ki, həmin müəssisələrin rəhbərləri burada məskunlaşan qeyri-azərbaycanlılardır. Hər bir ölkənin makroiqtisadi göstəricilərindən biri ölkə əhalisinin rifah səviyyəsidir. Qeyd edə bilərik ki, multikulturalizm ölkəmizdə yaşayan yerli əhalinin və başqa millətlərin rifahına da müsbət təsir göstərir. Siyasi və iqtisadi sabitliyin hökm sürməsi, yerli əhali ilə birgə başqa millətlərin də sülh və əmin-amanlıq içərisində yaşaması, onların hüquqlarının qorunması və eləcə də yerli əhali kimi bərabərhüquqlu olması respublikada rifah səviyyəsinin yüksəlməsindən xəbər verir.

Azərbaycan Respublikasında multikulturalizmin bir siyasət olaraq inkişaf etdirilməsi dünyanın bir sıra nüfuzlu ölkələri ilə iqtisadi əlaqələrin möhkəmlənməsinə də təsir göstərir. Belə ki, xarici ticarət əlaqələrinin qurulmasında, ölkəmizin müxtəlif sahələrinə külli miqdarda investisiya yatırılmasında, əcnəbi iş adamlarının ölkəmizdə şirkət qurub həm yerli əhalini, həm də müxtəlif millətləri işlə təmin etməsində multikulturalizm faktorunun əhəmiyyəti danılmazdır. Bundan əlavə, qeyd edə bilərik ki, multikulturalizmin ölkəmizdə turizmin inkişafına da böyük təsiri vardır.

Məlumdur ki, turizm sektoru iqtisadiyyatın ən çox perspektivli və gəlir gətirən sahələrindən biridir. Azərbaycanda isə turizmin inkişafı üçün əlverişli şərait və mühit var. Azərbaycanın əlverişli coğrafi məkanda yerləşməsi və gözəl iqliminin olması burada turizmin inkişafına təkan vermişdir. Hər il ölkəmizə xaricdən saysız-hesabsız turistlərin gəlməsi, onların yüksək səviyyədə istirahət etməsi və ölkəmizdən razı qalması turizmin inkişafının əyani sübutudur. Bakı, Gəncə, Qəbələ, Quba, Qusar və digər şəhər və rayonlarımız turizm üçün çox gözəl məkan hesab olunur. Burada turizmin inkişafını daha da sürətləndirmək olar. Turistlərin bir çoxu dəniz turizmi, bəziləri dağ turizmi üçün, bəziləri isə müalicə məqsədilə ölkəmizə üz tuturlar. Bütün bunlar respublikada turizmin inkişafına öz müsbət təsirini göstərir.

Ölkəmizdə multikulturalizm siyasətinin uğurla həyata keçirilməsi təkcə turizm sektorunun deyil, eləcə də iqtisadiyyatın digər sahələrinin inkişafına da müsbət təsirini göstərir. Yuxarıda qeyd etdiyimiz faktorları nəzərə alaraq qeyd edə bilərik ki, multikulturalizm ölkənin makroiqtisadi göstəricilərinin artımında, o cümlədən sosial iqtisadi inkişafın təmin olunmasında əvəzsiz rol oynayır.

***Xaqani NƏZƏROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müdavimi***

# "Ey Nəsimi, cahanı tutdu sözün..." mövzusunda beynəlxalq elmi konfrans keçirilib

Dekabrın 9-da AMEA-nın Mərkəzi Elmi Kitabxanasında görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunan "Ey Nəsimi, cahanı tutdu sözün..." mövzusunda II beynəlxalq elmi konfrans keçirilib. Əvvəlcə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən şairin yaradıcılığına həsr olunan sərgi nümayiş etdirilib.

Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə keçirilən konfransda AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev, Rusiya, Özbəkistan, Tacikistan və Türkiyədən nümayəndələr iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli açaraq Prezident İlham Əliyevin sərəncamı ilə 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edilməsini böyük mütəfəkkirin yaradıcılığına verilən yüksək dəyər və ehtiramın göstəricisi olduğunu bildirib. Qeyd edib ki, məhz bu sərəncamın icrası istiqamətində respublikamızda və onun hüdudlarından kənarda şairin yubileyi münasibətilə silsilə tədbirlər keçirilib, o cümlədən AMEA-da Nəsimi ilə bağlı müxtəlif konfranslar, elmi sessiyalar təşkil edilib, şairin əsərləri 11 dildə nəşr olunub və alimlərimiz həmin əsərlərə müqəddimə və şərhlər yazıblar. Akademik İ.Həbibbəyli konfransda xarici və yerli alimlərin, tanınmış ziyalıların iştirakını dahi Nəsimiyə xalq sevgisinin təzahürü kimi dəyərləndirib.

Akademiyanın vitse-prezidenti vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev tərəfindən Nəsimi irsinin sistemli tədqiqi və təbliği, xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. Ümummilli Liderin təşəbbüsü ilə Nəsiminin anadan olmasının 600 illik yubileyi UNESKO-nun tədbirlər siyahısına daxil edilib və 1973-cü ildə beynəlxalq səviyyədə qeyd edilib. Dahi şairin irsi ilə bağlı geniş araşdırmalar aparılıb, Nəsiminin Bakıda heykəli ucaldılıb, onun fəlsəfəsini işıqlandıran bədii film çəkilib, əsərləri ana dilində kütləvi nəşr olunub. Məhz həmin illərdə görülmüş tədbirlər nəticəsində bütün dünyaya Nəsiminin Azərbaycan şairi olması nümayiş etdirilib.

"Nəsimi bütün Şərq miqyasında tanınan, ölkəmizin üfüqlərini onun sərhədlərindən uzaqlara apara bilən qüdrətli Azərbaycan şairi və mütəfəkkiridir" deyən akademik İ.Həbibbəyli cari ildə AMEA-da Nəsimi yaradıcılığına həsr olunan 19 kitabın çap edildiyini, daha bir neçə əsərin nəşrinin isə nəzərdə tutulduğunu vurğulayıb. Qeyd edib ki, AMEA-nın nəsimişünaslığını təşkil edən bu kitablar üçün səciyyəvi cəhətlər Nəsimi fəlsəfəsinin dahi şairin mənsub olduğu xalqın milli-mənəvi dəyərləri ilə birgə təqdim olunmasıdır: "Aparılan son tədqiqatlar fonunda Nəsimi irsini bir daha dəyərləndirmək və onun əzəmətli obrazını yenidən canlandırmaq mümkündür".

Nəsimi şeiriyyatını Nizami Gəncəvidən sonrakı və Məhəmməd Füzulidən əvvəlki dövrün ən böyük ədəbiyyat zirvəsi adlandıran İ.Həbibbəyli qeyd edib ki, kamil insan konsepsiyasının yaradıcısı olan şair öz yaradıcılığında insanın mənəvi cəhətdən təkmilləşməsini cəmiyyətin inkişafının əsası kimi təbliğ edib.

Böyük mütəfəkkirin ideyalarının müasir dövrdə də davam etdirildiyini deyən AMEA-nın vitse-prezidenti yeni nəsillərin insanın mənəvi kamilləşməsi istiqamətində tərbiyə edilməsində Nəsimi irsinin xüsusi rolunu qeyd edib. O, ədibin həyatının faciəvi sonluğunun onun kamil insan uğrunda mübarizə aparan şair-qəhrəman kimi özünütəsdiqinin ifadəsi olduğunu diqqətə çatdırıb.

Sonda İ.Həbibbəyli bu gün keçirilən konfansın 2019-cu il ərzində AMEA-da Nəsimi irsinin tədqiqi və təbliği ilə bağlı görülən işlərin yekunu olduğunu vurğulayıb, tədbirin işinə uğurlar arzulayıb.

Plenar iclasda Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov bildirib ki, Nəsimi Azərbaycan və Şərq ədəbiyyatı ilə yanaşı, bütün dünya ədəbiyyatının ən cəsarətli şairlərindən hesab olunur. Nəsiminin yenilməz bir şəxsiyyət olduğunu, bütün əzab-əziyyətlərə rəğmən öz yolundan dönmədiyini söyləyən akademik şairin həqiqət carçısı kimi ədəbiyyat tarixində iz qoyduğunu deyib.

R.Hüseynov Nəsiminin yaradıcılığının ilk dəfə 1926-cı ildə Salman Mümtaz tərəfindən Azərbaycan oxucusuna təqdim olunduğunu, şeirlərinin kitab şəklində dərc etdirildiyini diqqətə çatdırıb. O, eyni zamanda, orta əsrlərdə Nəsiminin şeirlərinə çəkilmiş 20-yə yaxın miniatürün əldə edilərək həmin kitabda dərc olunduğunu vurğulayıb. Əlavə edib ki, nəsimişünaslığın böyük yolu məhz S.Mümtazın araşdırmalarından başlayır.

"Nəsimi yeganə Azərbaycan şairidir ki, dünyanın ən böyük elm, mədəniyyət, təhsil təşkilatı olan UNESKO tərəfindən yubileyi üç dəfə (1973-cü ildə anadan olmasının 600, 2017-ci ildə vəfatının 600, 2019-cu ildə isə anadan olmasının 650 illik yubileyi) qeyd olunub. Tarixboyu müxtəlif tədqiqatçılar tərəfindən görkəmli şair Nəsiminin Şamaxı, Bakı və Təbriz, Gəncə və Dərbənddə anadan olmasına dair fikirlər irəli sürülsə də, həqiqətlərin dünyaya çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri olub. Ulu Öndərin qətiyyəti sayəsində Nəsiminin Azərbaycan şairi olması məntiqi dəlillərlə sübut olunub", - deyə R.Hüseynov qeyd edib.

Sonda akademik R.Hüseynov Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə dahi şair İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş ağacəkmə aksiyasında ölkəmizin bütün regionlarında ümumilikdə 650 min ağacın əkilməsi aksiyasını yüksək qiymətləndirib, əkilən ağacların Nəsimi fəlsəfəsi kimi uzun illər yaşayacağına əminliyini ifadə edib.

AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva "Nəsimi irsinin tədqiqi və müasirlik" mövzusunda çıxış edib.

Gövhər Baxşəliyeva bildirib ki, dövlət başçısı tərəfindən 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan olunması ölkəmizdə yüksək ideallara, mənəvi həyata, mədəniyyətə, şeirə, sənətə, onların inkişafına nə qədər böyük diqqət yetirildiyinin təzahürüdür. "Nəsimi ili" ölkəmizdə nəsimişünaslığın inkişafına, böyük mütəfəkkirin irsinin, şairin ideallarının populyarlaşmasına böyük təkan verərək yeni-yeni kitab, monoqrafiya və sənət əsərlərinin yaranmasını stimullaşdırır.

Akademik qeyd edib ki, Nəsimi - böyük humanist şair, insanı ilahiləşdirən, onu ucaldan bənzərsiz şeirlərin müəllifi, Azərbaycan dilinin formalaşmasında müstəsna rol oynamış şairimizdir. Yaradıcılığının ideya-mövzu və bədii-estetik cəhətləri, bütövlükdə poetikası şairi orta əsrlərin ən qüdrətli söz və fikir sərrafları ilə bir cərgəyə qoyur. Nəsiminin azad ruhu, cəsarəti, həqiqətpərəstliyi, qorxmazlığı, orta əsrlər qaragüruhunun bütün sahələrdə tüğyan etdiyi bir dövrdə nadanlığa, cəhalətə qarşı "ənə-l-həq" deyən insanın möhtəşəm üsyanıdır. Nəsimi yaradıcılığının mübarizliyi, haqqı bütün varlığı ilə müdafiə etməsi, nahaqqa qarşı son damla qanınacan vuruşması böyük, möhtəşəm örnək olaraq bütün xalqımıza, ilk növbədə, gənc nəslimizə öz müsbət təsirini göstərir.

"Nəsimi irsinin dəyəri və əhəmiyyəti isə üç amillə - Nəsiminin yaradıcılığının sosial-fəlsəfi və ümumbəşəri mahiyyəti, onun insan mərkəzli düşüncəsi, etnik və dini fərqlərin fövqündə dayanaraq bəşəri vəhdəti tərənnüm etməsi, Nəsimi şeirinin yüksək poetik səviyyəsi və bədii təsir gücü və şairin ədəbi dil tariximizdə müstəsna rolu və xidmətləri ilə bağlıdır", - deyə G.Baxşəliyeva qeyd edib.

Özbəkistan Elmlər Akademiyası Ədəbiyyat, Dil və Folklor İnstitutunun əməkdaşı Erqaş Oçilov, Tacikistan Dövlət Dillər İnstitutunun dosenti, Ruxşona Vasiyeva, Rusiya Fəlsəfə Cəmiyyətinin beynəlxalq məsələlər üzrə vitse-prezidentinin müavini, fəlsəfə üzrə elmlər doktoru Ariz Gözəlov, Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə elmlər doktoru, dosent Fəridə Əzizova və başqaları Nəsiminin yaradıcılığından söz açıb, dahi şairin zəngin irsinin Azərbaycan xalqının bədii-fəlsəfi fikir tarixində müsbət rol oynadığını qeyd ediblər.

Konfrans işini bölmə iclasları ilə davam etdirib.

# İşsizlik sosial problem kimi tam aradan qaldırılır

*Əvvəli 1-ci səh.*

2019-2025-ci illərdə Bakı və ölkənin bölgələrində 31 DOST Mərkəzinin yaradılması nəzərdə tutulub.

"Məşğulluq" alt sistemi (MAS) isə 2019-cu il noyabrın 8-də istifadəyə verilib. MAS-ın məqsədi dövlət məşğulluq xidmətlərinin real vaxt rejimində çevikliyinin təmin edilməsi, əmək bazarı iştirakçıları üçün əlçatanlığının və effektivliyinin, ümumən əmək bazarında rolunun artırılmasıdır.

İşsiz və işaxtaranlar "E-sosial" və ya "e-gov.az" portalı vasitəsilə altsistemdə qeydiyyatdan keçərək sistemdə "İşaxtaranlar" pəncərəsini açır. Müraciət bölməsində FIN kodunu yazmaqla şəxsi kabinetini yaradır. "Fərdi məşğulluq" bölməsində "Vakansiya bankı" ilə tanış olaraq peşəsinə, əmək bacarığına uyğun vakansiyanı seçir.

İşəgötürənlər e-sosial.az ünvanına daxil olaraq "e-xidmətlər" bölməsindən "Yeni iş yeri və boşalan iş yeri (vakansiya) barədə məlumatların təqdim edilməsi" e-xidmətini seçir. "Vakansiyalar" bölməsindəki "Yeni vakansiya" altbölməsində vakant iş yerini, əməkhaqqını, iş yerinin daimi və ya müvəqqəti olmasını, işçiyə dair ixtisas, zəruri bilik, bacarıq tələblərini və s. qeyd edir.

Əhalinin işlə təmin olunmasında getdikcə genişlənən özünüməşğulluq proqramı müsbət rol oynayır. Prezident İlham Əliyevin tapşırığına əsasən icra olunan bu proqram işsiz və işaxtaran vətəndaşların dövlətin mal və materiallar formasında aktiv dəstəyi ilə özünüməşğulluğunun və kiçik ailə təsərrüfatlarının yaradılmasının təmin edilməsi məqsədini daşıyır. Özünüməşğulluq, eləcə də işsizlikdən kiçik biznesə çıxışının dəstəklənməsinə xidmət edir.

Proqramın əhatə dairəsi 2017-ci ilə nisbətən 2018-ci ildə 6,5 dəfə genişləndirilib və 7267 nəfər özünüməşğulluğa cəlb edilib. 2019-cu ildə özünüməşğulluq proqramına 10 min ailənin cəlb edilməsi nəzərdə tutulub.

Cari ildə özünüməşğulluq proqramına cəlb edilənlərin sayı 26 noyabr tarixinə 9513-ə çatıb. Onlardan 7655-i təlim kursunu uğurla başa vurub. Təlimlərin yekununda biznes-planlarını müdafiə edən 5765 nəfər işsiz və işaxtarana biznes planlarına uyğun mal və materiallar verilib. Proqrama cəlb olunanların əksəriyyətini əlilliyi olan şəxslər, məcburi köçkünlər, şəhid ailəsi üzvləri, ünvanlı sosial yardım alan və ya çoxuşaqlı ailələrin üzvləri, gənclər, müharibə veteranları təşkil edir.

Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi ilə birgə icra olunan "Sosial Bağlar" layihəsi də həyata keçirilən önəmli tədbirlərdəndir və bu iş də getdikcə genişlənməkdədir. 2018-ci ildə 125 ailə üçün intensiv meyvə bağları salınıb. 2019-cu ildə isə layihənin növbəti mərhələsi kimi, 250 ailə üçün intensiv meyvə bağlarının salınması işləri aparılır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə BMT-nin İnkişaf Proqramının (BMTİP) birgə icra etdiyi "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" layihəsi çərçivəsində isə 500 nəfər əlilliyi olan şəxsin özünüməşğulluq fəaliyyəti müstəvisində özlərinə dayanıqlı biznes qurumlarına dəstək verilir.

Dövlət başçısının təşəbbüsü və tapşırığı ilə 2019-cu ildə "İşsizin DOSTu" proqramının icrasına da başlanıb. İlin əvvəlindən həyata keçirilən bu proqram ödənişli ictimai işlərin sistemli və şəffaf təşkilinə imkan verib. Bu il 40 minə yaxın işsiz və işaxtaran şəxs proqram üzrə əmək müqaviləsi əsasında ödənişli ictimai işlərlə təmin edilib.

İşsizliyin sosial problem kimi tam aradan qalxmasına çox qalmayıb. İnsanların məşğulluq probleminin daim diqqətdə mərkəzində olması onlara göstərilən dövlət qayğısının ən aydın təzahürlərindən biridir. Bu istiqamətdə görülən tədbirlər də dövlətimizin siyasətinin mərkəzində Azərbaycan vətəndaşının maraqlarının və rifahının dayandığını təsdiqləyir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara, Məzəm, Qızılhacılı kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

